QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 029 (5501) 14 **fevral** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Bu gün müstəqil Azərbaycan çoxəsrlik tarixində ən yüksək inkişaf mərhələsindədir

## *Prezident İlham Əliyev: "Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir"*

Səh 3



"Azərbaycan həm iqtisadi, həm də siyasi baxımdan regional mərkəzə çevrilib"



2

"Azərbaycanda Formula-1 yarışları yüksək səviyyədə keçirilir"



4

Azərbaycan hara addımlayır?



4

Milli Məclisin növbəti plenar iclası keçirilib



8

Azərbaycan müəllimlərinin təşəbbüs qrupu prezident seçkiləri ilə əlaqədar bəyanat yayıb



9

Meydan TV ermənilərlə sıx işləyir




6

6

Milan Məhkəməsindən şər-böhtançılara sərt şillə



12

Efir məkanında uğurlara imza atan 62 yaşlı Azərbaycan Televiziyası




13

Müsavat İsa Qəmbərdən imtina etdi



# "Azərbaycan həm iqtisadi, həm də siyasi baxımdan regional mərkəzə çevrilib"

## *Prezident İlham Əliyev Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxelenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev nümayəndə heyətini salamlayaraq dedi:***

-Xoş gəlmisiniz. Sizi görməyimə çox şadam. Almaniyadan belə böyük nümayəndə heyətini görməyə çox məmnunam. Əminəm ki, ölkəmizə çox məhsuldar və maraqlı səfəriniz olacaq. Sizin səfəriniz onu nümayiş etdirir ki, ölkələrimizin biznes dairələrində qarşılıqlı maraq var və biz yeni layihələr və yeni ideyalar haqqında düşünməliyik. İndiyədək alman şirkətləri Azərbaycanda infrastruktur və inşaat sahəsində vacib layihələr həyata keçirib. Həmçinin bizim müasir zavodlarımız istehsalatda Almaniya avadanlığından istifadə edir. Buna görə də müxtəlif sahələrdə iqtisadi əməkdaşlığımızın artırılması üçün böyük potensial var.

Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Ötən il və bu il biz çox yaxşı nəticələr göstərmişik. İqtisadiyyatımız daha da çox rəqabətqabiliyyətli olub. Davos İqtisadi Forumunun sonuncu qiymətləndirməsinə əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 35-ci yerdə qərarlaşıb. İnkişaf etməkdə olan ölkələr arasında inklüziv inkişaf indeksinə gəldikdə, Azərbaycan 3-cü yerdədir. Beləliklə, bu, həqiqətən də islahatların aparılmasını nümayiş etdirir. Əlbəttə ki, bizim ixrac etdiyimiz çoxlu enerji resurslarımız var və bu ildən başlayaraq Cənub Qaz Dəhlizi ilə əlaqədar olaraq biz onları daha da çox ixrac edəcəyik. Lakin bizim əsas prioritetimiz bizə iqtisadiyyatımızı şaxələndirməyə və neft-qazdan asılılığı azaltmağa imkan yaradan qeyri-enerji sektorudur. Qeyri-enerji sektorunda yanvar ayında iqtisadiyyatımızda demək olar ki, dörd faizlik artım müşahidə olunub və qeyri-neft sektorunda sənaye istehsalı 8,7 faiz artıb. Beləliklə, bu, islahatları çox yaxşı əks etdirir, xüsusilə şaxələndirmə ilə bağlı olaraq.

Alman şirkətləri ilə əməkdaşlığımız əsasən qeyri-enerji sektorunda aparılır. Bu da hər iki tərəf üçün yaxşı bir haldır. Əlbəttə, mən ümid edirəm ki, səfərinizdən sonra yaxşı əməli nəticələr olacaq və biz daha da fəal iqtisadi əməkdaşlıq aparacağıq.

x x x

Sonra Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxele çıxış edib:

-Cənab Prezident, açılış nitqinizə görə çox sağ olun. Azərbaycan bizim üçün çox maraqlı ölkədir. Çünki biz həqiqətən də ölkənizdə çoxlu potensial görürük. Bizim Sizin ölkənizə olan marağımızı göstərən bu böyük nümayəndə heyəti, sadəcə, Azərbaycana səfər etmək üçün yox, ölkənizdə daha da fəal olmaq, qeyri-neft sektorunda alman müəssisələri üçün imkanları müəyyənləşdirmək məqsədilə gəlib. Çünki biz hesab edirik ki, uzunmüddətli perspektivdə bir tərəfdən neft və qaz sektorunun inkişafı, digər tərəfdən isə qeyri-neft sektorunun inkişafı, əlbəttə, hər iki tərəf üçün faydalıdır. Bizim üçün ona görə ki, biz ən azından bu işə töhfəmizi verə biləcəyimizə ümid edirik. Azərbaycan isə uzunmüddətli perspektivdə iqtisadiyyatını daha da tarazlaşdıra bilər.

Böyük nümayəndə heyəti ilə Azərbaycana gəldiklərini deyən Volfqanq Büxele bu tədbirdə ölkəmizlə birbaşa əməkdaşlıq etmək arzusunda olan iri şirkətlərin rəhbərlərinin təmsil olunduğunu dedi.

x x x

Almaniyanın tikinti sahəsində ixtisaslaşan "GP Günter Papenburg" şirkətinin İdarə Heyətinin sədri Günter Papenburg təmsil etdiyi şirkətin Azərbaycandakı fəaliyyəti barədə danışaraq şirkət tərəfindən ölkəmizdə ixtisaslı kadrlar üçün təlimlərin keçirildiyini bildirdi, ölkəmizlə əməkdaşlığın gələcəkdə də uğurla həyata keçiriləcəyinə əminliyini ifadə etdi. Günter Papenburg rəhbərlik etdiyi şirkətin Azərbaycan bazarında müxtəlif layihələrdə, o cümlədən tikinti materialları, tullantıların emalı sahələrində iştirak etməkdə maraqlı olduğunu dedi.

x x x

Prezident İlham Əliyev Azərbaycanda tikinti materialları sektorunun fəaliyyətinə toxunaraq ölkəmizdə iri sement zavodlarının inşa edildiyini vurğuladı, Azərbaycanın son 8 ildə sement idxal edən ölkədən ixrac edən ölkəyə çevrildiyini bildirdi. Bu sahəyə iri həcmdə investisiyaların cəlb edildiyini deyən dövlətimizin başçısı Azərbaycanın artan iqtisadi potensialını, qəbul edilmiş regional inkişaf proqramlarının yerinə yetirilməsini nəzərə alaraq növbəti beşillik proqramda da dövlət tərəfindən maliyyələşdirilən mühüm infrastruktur və inşaat layihələrinin əksini tapacağını, mənzil inşaatının genişlənməsinin, yeni zavodların tikilməsinin, əhali artımının gələcəkdə sementə böyük tələbat yaradacağını bildirdi. "Bu baxımdan bu sahəyə investisiya qoymaq niyyətində olan xarici şirkətlər bundan yalnız faydalana bilərlər", - deyən Prezident İlham Əliyev vurğuladı ki, qarşıya qoyulan məqsədlərdən biri özümüzü bütün tikinti materialları ilə 100 faiz təmin etməkdir. Nəzərə almaq lazımdır ki, bizim kifayət qədər xammalımız var və tikinti materialları sahəsində yerli istehsal son 10 ildə xeyli artıb.

x x x

Almaniyanın tunelqazma texnologiyaları sahəsində aparıcı şirkətlərindən olan "Herrenknext" şirkətinin İdarə Heyətinin sədri Martin Herrenknext Azərbaycanda fəaliyyətə başladıqlarını qeyd edərək bu istiqamətdə görülən işlərdən danışdı. O, ölkəmizdə metro tikintisi sektorunda təmsil etdiyi şirkətin iştirak etməkdə maraqlı olduğunu bildirdi. Azərbaycanda fəaliyyətlərindən böyük məmnunluq hissi keçirdiklərini bildirən Martin Herrenknext dedi:

-Biz Bakıda özümüzü həqiqətən təhlükəsizlik şəraitində hiss edirik. Bakı regionda fəaliyyət göstərən alman şirkətləri üçün bir mərkəz ola bilər. Bununla bağlı təbriklərimi çatdırıram. Mən Bakıya kifayət qədər hörmət hissi bəsləyirəm. Bura yaşamaq üçün yaxşı yerdir. Əla mehmanxanalar var.

Martin Herrenknext Azərbaycanın regionlarına səfərinin də çox maraqlı keçdiyini qeyd edərək bir daha ölkəmizin regionda iqtisadi mərkəzə çevrilməsi üçün hər cür imkanın olduğunu vurğuladı.

x x x

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Azərbaycanın həqiqətən də həm iqtisadi, həm də siyasi baxımdan regional mərkəzə çevrildiyini bildirdi. Ölkəmizdə həm qonşu, həm də uzaq xarici ölkə nümayəndələrinin iştirakı ilə mühüm beynəlxalq tədbirlərin keçirildiyini deyən dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan regionun mühüm enerji mərkəzinə çevrilməkdədir. Ölkəmizin təşəbbüsü ilə həyata keçirilən qlobal enerji layihələrinə çoxmilyardlı investisiyalar qoyulub.

Azərbaycanın regionun nəqliyyat mərkəzinə də çevrildiyini deyən Prezident İlham Əliyev ötən il istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu ilə artıq yüklərin Asiyadan Avropaya və əks istiqamətdə daşındığını bildirdi. Azərbaycanın əlverişli coğrafi mövqeyinin, ölkəmizdə təhlükəsizliyin təmin olunmasının, insanlarımızın qonaqpərvərliyinin, ölkəmizdə hökm sürən dostluq və multikulturalizm mühitinin, yüksək standartlara cavab verən mehmanxanaların və istirahət mərkəzlərinin, müasir aeroportların Azərbaycanın gələcəkdə regionda önəmini daha da artırmaq üçün yaxşı imkanlar yaratdığını deyən dövlətimizin başçısı bu il yenidən metro tikintisi sahəsində layihələrin həyata keçiriləcəyini bildirdi. Azərbaycanın neft-qaz sektorunun böyük perspektivlərə malik olduğunu və onun gələcək onilliklər üçün kifayət etdiyini deyən Prezident İlham Əliyev bu sahədə də xarici şirkətlərin fəaliyyəti üçün geniş imkanların olduğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı ölkəmizdə turizmin inkişafının diqqət mərkəzində olduğunu deyərək bu sahənin təkcə Bakıda deyil, regionlarda da inkişaf etdiyini vurğuladı. Bildirdi ki, 2016-cı ildə Azərbaycana gələn turistlərin sayında 24 faiz, 2017-ci ildə 20 faiz və bu ilin yanvarında isə artıq 17 faiz artım olub. Bu baxımdan Azərbaycanın vaxtilə almanların məskunlaşdığı bölgəsi də alman turistlər üçün maraqlı marşrut ola bilər və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı imkanlar var.

x x x

Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxele Azərbaycanla ticarət imkanlarının daha çox öyrənilməsinin vacibliyini qeyd etdi. O, gələcəkdə Azərbaycan vasitəsilə digər ölkələrlə də iqtisadi əlaqələr qurmaq imkanlarının ola biləcəyini vurğuladı.

x x x

Almaniyanın nüfuzlu enerji şirkəti olan "Uniper Global Commodities" şirkətinin qaz təchizatı üzrə vitse-prezidenti Uve Fip təmsil etdiyi şirkətin "Cənub Qaz Dəhlizi" layihəsində iştirakından qürur duyduğunu dedi. O, artıq 10 ildir ki, "Şahdəniz-2" layihəsi ilə bağlı danışıqlarda iştirak etməkdən məmnunluğunu bildirdi.

**Ardı Səh. 3**

# "Azərbaycan həm iqtisadi, həm də siyasi baxımdan regional mərkəzə çevrilib"

## *Prezident İlham Əliyev Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*





Əvvəli Səh. 2

SOCAR və digər qurumlarla uğurlu əməkdaşlıq etdiklərini, idarəetmə, menecment, texniki, uşaq proqramları mübadiləsi, "Azərikimya" şirkəti ilə birgə kimya zavodunun, buxar turbinlərinin inşası sahələrində uğurlu layihələr həyata keçirdiklərini deyən Uve Fip 2016-cı ildə ölkəmizdə birgə müəssisənin yaradıldığını vurğuladı, gələcəkdə də bir sıra layihələr, o cümlədən enerji səmərəliliyi layihələri ilə bağlı əməkdaşlıq planlarının olduğunu diqqətə çatdırdı.

x x x

Prezident İlham Əliyev "Uniper Global Commodities" şirkətinin ölkəmizdəki fəaliyyətindən məmnunluğunu ifadə edərək bu şirkətin gələcəkdə də uğurlu əməkdaşlıq həyata keçirəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycanda enerji sektorunun uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev bu sahədə ölkəmizin qlobal layihələr həyata keçirdiyini, bu baxımdan "Cənub Qaz Dəhlizi" layihəsinin böyük əhəmiyyət kəsb etdiyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu layihənin təşəbbüskarı, həmçinin lideridir və bu yaxınlarda Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşü olacaq. "Azərbaycanın enerji layihələri təkcə "Şahdəniz-2" ilə məhdudlaşmır", - deyən Prezident İlham Əliyev yeni yataqlar üzrə dünyanın bir sıra aparıcı şirkətləri ilə danışıqların aktiv fazaya daxil olduğunu diqqətə çatdırdı. Bununla da Azərbaycanda neft və təbii qaz hasilatının sabit qalacağını və gələcəkdə daha da artacağını vurğuladı. "Azəri-Çıraq-Günəşli" yataqlarının istismarını nəzərdə tutan müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılmasının əhəmiyyətinə toxunan dövlətimizin başçısı bildirdi ki, bu, bundan sonra ən azı 30 il müddətində Azərbaycanın dünyanın aparıcı şirkətləri ilə bu nəhəng yataqların birgə işlənilməsini həyata keçirəcəyini göstərir. Bütün bunlar isə əhalinin rifah halının yaxşılaşdırılmasına, ölkə iqtisadiyyatının güclənməsinə və tərəfdaşlarımızın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edir. "Cənub Qaz Dəhlizi" layihəsinin Avropa Komissiyası tərəfindən güclü şəkildə dəstəklənməsinin önəmini qeyd edən Prezident İlham Əliyev "Uniper Global Commodities" şirkətinə ölkəmizdəki gələcək fəaliyyətində uğurlar arzuladı.

x x x

Alman-Azərbaycan Forumunun prezidenti Hanns-Eberhard Şleyer Forumun gələn həftə Berlində konfransının keçiriləcəyini vurğuladı. Hanns-Eberhard Şleyer bu qurum çərçivəsində müxtəlif tədbirlərin keçirildiyini, o cümlədən siyasi müzakirələrin aparıldığını deyərək hazırda peşə hazırlığı ilə bağlı məsələlərə diqqət yetirdiklərini bildirdi. İqtisadiyyatın, enerji və digər sahələrdə əməkdaşlığın genişlənməsinin ixtisaslı kadrların hazırlanmasını tələb etdiyini deyən qonaq Almaniyada bu sahənin inkişaf etdiyini və bu sahədə Azərbaycanla əməkdaşlığa dair konsepsiyasının işlənməsinin vacibliyini qeyd etdi.

x x x

Prezident İlham Əliyev peşə hazırlığının Azərbaycanda təhsilin mühüm istiqamətlərindən olduğunu deyərək ümumilikdə təhsil sisteminin ölkədə ən mühüm prioritetlərdən birinə çevrildiyini vurğuladı. Azərbaycanda savadlılıq səviyyəsinin demək olar ki, 100 faiz olduğunu deyən dövlətimizin başçısı bunun ölkənin inkişafı üçün bir təməl olduğunu bildirdi. Qeyd etdi ki, ölkəmizdə iqtisadi, sənaye və digər sahələrdə böyük nailiyyətlərin əldə edildiyi bir dövrdə peşə hazırlığı heç vaxt olmadığı qədər önəm kəsb edir. Bu baxımdan Azərbaycan peşə hazırlığı sahəsində əməkdaşlığın həyata keçirilməsini dəstəkləyir və bununla bağlı müvafiq qurumlar arasında əlaqələndirmənin həyata keçirilməsi vacibdir. Bu baxımdan Azərbaycanın bir sıra ölkələrlə beynəlxalq əməkdaşlıq həyata keçirdiyini deyən Prezident İlham Əliyev bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə etdi. Ölkədə iqtisadi, o cümlədən enerji, infrastruktur, xidmət, turizm sahələrinin və digər sahələrin inkişafının ixtisaslı kadrların yetişdirilməsini və texniki heyətin hazırlanmasını zəruri etdiyini bildirdi.

x x x

Azərbaycanla əməkdaşlığı genişləndirmək niyyətində olan "AIRBUS Group International" şirkətinin Avropa üzrə vitse-prezidenti Marko Miklis ölkəmizlə aerokosmik sənayenin müxtəlif seqmentləri üzrə əlaqələr üçün yaxşı imkanların olduğunu dedi və bu baxımdan "Azərkosmos"la məhsuldar əməkdaşlığın həyata keçirildiyini vurğuladı. "Azərsky-1" peykinin çox yüksək səviyyədə fəaliyyət göstərdiyini deyən qonaq Azərbaycanda Yer səthini müşahidə edən yüksək həssaslığa malik yeni peykin perspektivlərinin onlarda böyük maraq doğurduğunu və təmsil etdiyi şirkətin bu işə öz töhfəsini verməyə hazır olduğunu bildirdi.

x x x

Azərbaycanın "AIRBUS" şirkəti ilə uzun illər çox yaxşı əməkdaşlıq həyata keçirdiyini vurğulayan dövlətimizin başçısı İlham Əliyev kosmik sənaye sahəsində də bu şirkətlə səmərəli əlaqələrin qurulmasından məmnunluğunu ifadə etdi. Azərbaycan peykinin müxtəlif sahələrin, o cümlədən kənd təsərrüfatı, meliorasiya və digər sahələrin inkişafına xidmət etdiyini deyən Prezident İlham Əliyev mövcud peykin əsas iqtisadi və infrastruktur ehtiyaclarını ödədiyini vurğuladı.

x x x

Almaniyanın kənd təsərrüfatı maşınqayırması sahəsində ixtisaslaşan "CLAAS Global Sales" şirkətinin Azərbaycandakı fəaliyyətinə toxunan şirkətin regional prezidenti Nils Roits artıq ölkəmizdə texniki xidmət üzrə şəbəkənin yaradılması və ixtisaslı kadrların hazırlanması ilə bağlı səylərin artırıldığını, Azərbaycan fermerlərinin müasir texnikadan rahat istifadəsi üçün təlimlərin keçirildiyini bildirdi.

x x x

Azərbaycanın xarici ölkələrdən, o cümlədən Almaniyadan kənd təsərrüfatı texnikası aldığını deyən Prezident İlham Əliyev bildirdi ki, ölkəmiz bu texnikanın Azərbaycanda yığılmasında da maraqlıdır. Lakin bütün bunlar bazar tələbinin parametrləri nəzərə alınmaqla həyata keçirilməlidir. Ölkəmizin böyük həcmdə kənd təsərrüfatı texnikası ilə təmin edilməsinin son illərdə aqrar sahədə nailiyyətlərin qazanılmasına imkan verdiyini deyən dövlətimizin başçısı kənd təsərrüfatı istehsalının ötən il 4 faiz artdığını, bu il də bu sahənin yeni texnika ilə təmin ediləcəyinin planlaşdırıldığını bildirdi. Qeyd etdi ki, bu baxımdan texniki xidmət və peşə hazırlığı mühüm rol oynayır və texniki xidmət sahəsində Almaniya ilə əməkdaşlıq bu işlərə öz köməyini göstərə bilər.

x x x

Almaniya-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Tobias Baumann bildirdi ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkədə həyata keçirilən iqtisadi islahatlar qısa müddət ərzində artıq uğurlu nəticəsini verib. Bu, özünü qanunvericilik, gömrük, inzibati və digər sahələrdə göstərib. O, Almaniya-Azərbaycan Ticarət Palatasının bu ilin iyununda keçiriləcək Azərbaycan-Avropa İttifaqı biznes-forumuna təqdim etmək üçün biznes mühiti ilə bağlı tədqiqat üzərində fəal iş apardığını bildirdi. Tobias Baumann həmkarları ilə birlikdə peşə hazırlığı sahəsində əməkdaşlıqla bağlı həyata keçirəcəyi işlərdən danışdı və sonda Ticarət Palatasının üzvlərinin sayının artdığını məmnunluq hissi ilə diqqətə çatdırdı.

x x x

İslahatlarla bağlı xoş sözlərə görə minnətdarlıq edən Prezident İlham Əliyev ölkəmizin bu islahatların bundan sonra da davam etdirilməsinə möhkəm sadiqliyini ifadə etdi. Bildirdi ki, iqtisadi sahədə, o cümlədən institusional, struktur, fiskal və digər sahələrdə aparılan islahatlar artıq uğurlu nəticələr verib və bu islahatlar davam etdiriləcək. "Qarşımızda duran əsas məqsəd qeyri-neft sektoruna əsaslanan dayanıqlı inkişafımızı təmin etməkdən ibarətdir", - deyən Prezident İlham Əliyev bildirdi ki, bu baxımdan Azərbaycan şəffaflıq və hesabatlılıq prinsiplərinə nail olmaq niyyətindədir və biz buna nail olacağıq. Biz Azərbaycanda investisiya mühitinə böyük diqqət yetiririk. Son 15 ildə ölkəmizə 230 milyard dollardan artıq sərmayənin cəlb olunduğunu deyən dövlətimizin başçısı qeyd etdi ki, bu sərmayənin ən böyük hissəsinin neft sektoruna qoyulmasına baxmayaraq, - bu da təbiidir, - eyni zamanda, qeyri-neft sektoruna böyük həcmdə investisiyaların yatırılması bizə iqtisadiyyatımızın şaxələndirilməsinə və regional inkişafa nail olmağa imkan verib.

Bundan sonra uzun müddət davam edəcək enerji layihələrinin ölkəmizə əlavə gəlir gətirəcəyini deyən dövlətimizin başçısı Azərbaycanda makroiqtisadi vəziyyətin çox müsbət olduğunu bildirdi, xarici valyuta ehtiyatlarının ümumi daxili məhsulun həcminə bərabər olduğunu, xarici borcumuzun çox aşağı səviyyədə - təxminən 20 faiz həcmində olduğunu bildirdi. İnflyasiyanın bu ilin ilk ayında 5,5 faiz təşkil etdiyini deyən Prezident İlham Əliyev əhalinin gəlirlərinin isə 11 faizdən çox artdığını bildirdi. Bütün bunlar inkişaf üçün fundamental əsas yaradır. İnfrastruktur və kənd təsərrüfatı sahələrinə qoyulan investisiyaların artıq öz nəticələrini verdiyini deyən dövlətimizin başçısı bu baxımdan bilik, texnologiya, yaxşı idarəetməyə və insan kapitalına əsaslanan çox güclü iqtisadiyyat yaratmaq məqsədilə islahatların bundan sonra da davam etdiriləcəyini bildirdi. Prezident İlham Əliyev dedi ki, neft-qaz sektoru bizə yalnız daha çox vəsait toplamaq və Neft Fondunun gəlirlərini artırmaq imkanı verəcək.

# “Azərbaycanda Formula-1 yarışları yüksək səviyyədə keçirilir”

## *Prezident İlham Əliyev Formula-1 Qrupunun baş icraçı direktorunu qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Formula-1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda Formula-1 yarışlarının çox yaxşı təşkil olunduğu və yüksək səviyyədə keçirildiyi vurğulandı. Qeyd edildi ki, Formula-1 yarışlarının Azərbaycanda təşkili xeyli sayda insanların paytaxtımızda gedən inkişafla yaxından tanış olması ilə bərabər, eyni zamanda, Azərbaycana turist axınının təmin edilməsi işinə də öz töhfəsini verib. Söhbət zamanı Bakıda bu ilin aprel ayında keçiriləcək Formula-1 yarışları ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 194 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət qulluqçularının əmək pensiyasının yenidən hesablanması Qaydaları”nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Şəhər elektrik nəqliyyatının sürücülərinə pensiyaya vaxtından tez çıxmaq hüququ verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 11 noyabr tarixli 448 nömrəli Fərmanının ləğv edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli 1413 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”nda dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi sərəncamlarının ləğv edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

# Azərbaycan hara addımlayır?

## *2017-ci ilin yekunlarına əsasən bu respublika MDB məkanında ən dinamik inkişaf edən ölkə hesab olunub*

***Rusiyanın nüfuzlu “Trud” qəzetinin 13 fevral nömrəsində “Azərbaycan hara addımlayır” sərlövhəli məqalə dərc edilib. AZƏRTAC məqaləni təqdim edir.***

***

Bu günlərdə Rusiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyi münasibətilə Rusiya Dövlət Dumasında azərbaycanlı həmkarları qəbul ediblər. Rusiyalı deputatlar öz qonşuları barədə danışarkən respublikanın uğurlarını xüsusi qeyd ediblər: 2017-ci ilin yekunlarına əsasən bu respublika MDB məkanında ən dinamik inkişaf edən ölkə hesab olunub.

“Azərbaycan iri addımlarla irəliləyir!”. Bu qanadlı ifadəni Sov.İKP MK-nın Baş katibi Leonid Brejnev 1982-ci ildə Bakıya səfəri zamanı respublikaya Lenin ordenini təqdim edərkən işlədib. Həmin ilin sentyabr səfəri Baş katib üçün sonuncu oldu, bu sözlər isə sən demə, böyük uzaqgörənliklə söylənilib.

Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin rəhbəri Leonid Slutski Azərbaycan barədə sərginin açılışında qeyd edib ki, Azərbaycan “postsovet məkanının hüdudlarından kənarda ən çiçəklənən iqtisadiyyatlardan birinə çevrilib, həmçinin bir sıra böyük beynəlxalq təşəbbüslərin mənbəyidir”.

Bu yaxınlarda Davosda keçirilmiş forumun ekspertlərinin fikrincə, 2017-ci ildə Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətlilik reytinqində iki pillə irəliləyərək 35-ci yerdə qərarlaşıb. Bəs, beynəlxalq maliyyə təsisatları Cənubi Qafqazın bu respublikasını SSRİ-nin digər “varisləri” arasında nəyə görə xüsusi fərqləndirirlər?

Qeyd edək ki, SSRİ-nin dağılması nəticəsində “hər bacıya bir sırğa düşüb”. Məsələn, əhalisinin sayına və iqtisadi potensialına görə Sovet Ukraynasını həmin dövrdə Avropanın aparıcı dövlətləri ilə, məsələn, Fransa ilə müqayisə etmək olardı. Bəs indi Ukrayna hara, Azərbaycan hara? Məsələ təkcə neftdədirmi?

Milli Məclisin deputatı, Dövlət İdarəçilik Akademiyası yanında Siyasi Araşdırmalar İnstitutunun direktoru Elman Nəsirov əsrin dördləbiri qədər əvvəlki dövrə qayıdır. O, həmin dövrü xatırlayaraq deyir: “1990-cı illərin əvvəlində bizim hökumət qüsurlu idi. Xalq cəbhəsi dövründə anarxiya başlanmışdı, ölkə vətəndaş müharibəsi həddində idi. Ölkənin həm cənubunda, həm də şimalında separatizm yaranmışdı, Azərbaycan parçalanma təhlükəsi qarşısında idi. Belə bir vaxtda şəxsiyyətin rolu amili həlledici oldu. Rusiyada hakimiyyət nəyə görə güclüdür? Ona görə ki, Putin güclü şəxsiyyətdir. Bu gün Azərbaycanda hamı bilir ki, Heydər Əliyev hakimiyyətə qayıdandan sonra hərcmərcliyə son qoyuldu. Məhz onun sayəsində 10 il ərzində Azərbaycan iqtisadiyyatında və ölkənin bütün həyatında bərpa, sonra isə inkişaf yaşandı”.

Diletantlardan sonra hakimiyyətə gələn Heydər Əliyev yaxşı bilirdi ki, yarımüflis vəziyyətdə olan ölkəyə inkişaf edən iqtisadiyyata əsaslanan siyasi sabitlik lazımdır. Məhz həmin vaxtda o, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq”, “Günəşli” (AÇG) neft yataqları qrupuna diqqət yetirdi. Sovet geoloqlarının kəşf etdiyi bu yataqlar Xəzərdə ən iri neft-qaz kondensat yatağı hesab edilir. İlkin hesablamalara görə, bu yatağın neft ehtiyatları 500 milyon ton hesab edilirdi, lakin sonradan bu rəqəmin daha böyük olması təsdiqləndi.




1994-cü ilin sentyabrında Bakıda möhtəşəm bir hadisə oldu: dünyanın 8 ölkəsini, o cümlədən Rusiyanı təmsil edən 11 iri transmilli şirkətlə “Azəri-Çıraq-Günəşli” yataqları blokunun birgə işlənilməsi barədə “Əsrin müqaviləsi” imzalandı. Beynəlxalq ekspertlərin rəyinə görə, “Əsrin müqaviləsi” istər karbohidrogen ehtiyatlarının həcminə, istərsə də investisiyaların ümumi məbləğinə görə ən iri sazişlər siyahısına daxil olub. İndiyə qədər bu yataqlardan 3 milyard barreldən çox neft hasil edilib, bu layihəyə qoyulmuş sərmayələrin ümumi məbləği isə 33 milyard dollara yaxındır.

Neft hasilatının artımı və qaz yataqlarının işlənilməsi karbohidrogenlərin qiymətinin artması ilə eyni vaxta düşdü. Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) sürətlə artdı: 1992-2014-cü illərdə bu göstərici 1,2 milyard dollardan 75,3 milyard dollara çatıb (keçmiş SSRİ respublikaları arasında rekord göstərici). Əhalinin hər nəfərinə düşən ÜDM bu müddətdə artaraq 159 dollardan 8000 dollara çatıb.

Respublikanın indiki Prezidenti İlham Əliyev atasının işini layəqətlə davam etdirir. 2017-ci ilin sentyabrında AÇG yataqlarının işlənilməsinə dair kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Prezident İlham Əliyev bununla əlaqədar deyib: “Bu, imkan verəcək ki, xarici sərmayədarlar Azərbaycanın neft sektoruna bundan sonra da iri sərmayələr yatırsınlar. Burada söhbət on milyardlarla dollardan gedir”.

Azərbaycan üçün növbəti qlobal enerji layihəsi “Şahdəniz” qaz-kondensat yatağının mənimsənilməsi oldu. 1954-cü ildə kəşf edilmiş bu yataq da Xəzərdə ən iri yataq hesab edilir. Azərbaycan rəhbərliyi, necə deyərlər, velosiped icad etməyə başlamadı, bu yatağın işləməsi üçün 1996-cı ildə Rusiyanın “Lukoyl” şirkəti də daxil olmaqla beynəlxalq neft-qaz şirkətləri konsorsiumu ilə əhəmiyyətinə görə ikinci saziş imzalandı.

“Şahdəniz” yatağından Gürcüstana, daha sonra Türkiyəyə qaz nəqlinin başlanması Avropa İttifaqının “Cənub Qaz Dəhlizi” adlı layihənin icrasına başlamaq barədə qərarı ilə eyni vaxta düşdü. Burada söhbət Xəzər dənizi regionundan Rusiya və Ukraynadan yan keçməklə Aİ ölkələrinə qaz nəqlini təmin etməli olan lokal qaz kəmərləri sisteminin tikintisindən gedir. Proqnozlara görə, 2020-ci ilin əvvəlində Azərbaycan Avropa bazarına 10 milyard kubmetr qaz nəql edə biləcək. Bu, o deməkdirmi ki, respublika öz şimal qonşusu ilə rəqabət apara bilər? Elman Nəsirov bu fərziyyəyə şübhə ilə yanaşaraq deyir: “Avropanın qaza illik tələbatı 500 milyard kubmetrə bərabərdir. Bu həcmin təxminən 49 faizini Rusiya təmin edir. Azərbaycan yalnız iki ildən sonra qaz sata biləcək və bu satışın həcmi Rusiyanın satışı ilə müqayisədə bir tərtib aşağı olacaq. Buna görə də Aİ üçün Rusiya yenə əsas tərəfdaş olaraq qalacaq”.

Energetika sahəsində meqalayihələrin reallaşdırılması Azərbaycanın sabit inkişafını təmin etməlidir. Lakin 2015-ci ildə neftin qiymətinin azalması ölkə büdcəsinin neftqaz gəlirlərindən yüksək dərəcədə asılı olduğunu göstərdi. İqtisadiyyatın şaxələndirilməsi məsələsi gündəliyə gəldi. Bu baxımdan ümumi uzunluğu 850 kilometr olan qlobal nəqliyyat layihəsinin - Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsinin reallaşdırılması ciddi addım olmalıdır. BTQ dəmir yolu xətti 2017-ci il oktyabrın 30-da açıldı və dərhal qonşuların böyük marağına səbəb oldu. Yeni BTQ nəqliyyat dəhlizi tarixi İpək Yolu üzrə yükdaşımalar üçün ciddi potensiala malikdir.

İlham Əliyev Davos Forumunun iştirakçılarına bu genişmiqyaslı layihə barədə məlumat verərək deyib: “Bu gün bu, Çindən Avropaya olan ən qısa marşrutdur - əvvəllər bu məsafə 30-35 gün ərzində qət olunurdusa, artıq bu gün iki həftə ərzində qət edilir. ... Açıq okeana çıxışı olmayan bir ölkə kimi Azərbaycan regional nəqliyyat dəhlizinə çevrilmişdir”. Prezident xüsusi vurğulayıb ki, qonşu ölkələrlə münasibətlərin yaxşılaşdırılması Azərbaycanın xarici siyasətinin prioritetidir. Azərbaycan iri addımlarla irəliləyir - sülhə, əməkdaşlığa və daha böyük iqtisadi inkişafa doğru.

# Bu gün müstəqil Azərbaycan çoxəsrlik tarixində ən yüksək inkişaf mərhələsindədir

## *Prezident İlham Əliyev: "Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir"*

**Azərbaycanda müstəqillik dövrünün sayca 8-ci Prezident seçkisi başlayıb. Məhz iki aydan sonra Azərbaycanda prezident seçkiləri keçiriləcək və son Konstitusiya İslahatlarına əsasən, yeni seçiləcək prezident 7 il dövlətə və xalqa ləyaqətli xidmət missiyasını yerinə yetirəcək.**



Xatırladaq ki, fevralın 5-də 1 milyon 500 min üzvü və 16901 ilk təşkilatı ətrafında birləşdirən Həmkarlar İttifaqları Konfederasiyası, fevralın 8-də isə Cənubi Qafqazın ən böyük siyasi təşkilatı, 700 mindən çox insanı ətrafında birləşdirən Yeni Azərbaycan Partiyası təşkilatın Sədri İlham Əliyevi prezidentliyə namizəd kimi irəli sürdü. Əlbəttə, bu sosial sifariş Azərbaycan xalqının mövqeyinin ifadəsi idi. Bu, Cənab İlham Əliyevin alternativsiz Lider olduğunun təsdiqi idi. Çünki Cənab İlham Əliyevin alternativsiz lider olması bir sıra əhəmiyyətli məqamlara söykənir. Ölkəmizdə uzun illərdir mövcud olan ictimai-siyasi sabitlik, dövlətin nüfuzu, iqtisadi qüdrətinin yüksəlməsi, dünya siyasi arenasında söz sahibinə, Cənubi Qafqazın isə lider dövlətinə çevrilməsi, məhz Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil siyasətinin və gərgin əməyinin nəticəsidir.

Artıq ölkəmiz prezident seçkilərinə hazırlaşır və bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da seçki mühitini ölkənin son illər ərzindəki inkişafı və bu yüksəlişin formalaşdırdığı ab-hava müəyyənləşdirir. Son 14 ildə Cənab İlham Əliyevin həyata keçirdiyi yeni inkişaf konsepsiyası ölkədə köklü yeniliklərə, müasir inkişaf tendensiyalarına təkan oldu, dövlətin mövcudluq və müstəqilliyin davamlılıq şərtlərini təmin edən amilləri gücləndirdi. Ölkədə başlanan yeni inkişaf dövrü, dərin və sürətli islahatlar mərhələsi mühüm uğurları şərtləndirdi. Dövlət başçısının rəhbərliyi ilə 2003-cü ildən ötən müddət müasir tariximizə ölkənin iqtisadi, sosial, siyasi və mədəni inkişafının dönüş nöqtəsi kimi daxil olub. Bu illər ərzində uğurla həyata keçirilən islahatlar nəticəsində, Azərbaycan dünyaya özünün nadir iqtisadi inkişaf modelini təqdim edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı tam, bitkin və sistemli xarakter daşıyaraq, əsl mənada, intibah kimi hər bir ölkə vətəndaşının müasir həyatına və tariximizə daxil olub. Son 14 il ərzində Prezident İlham Əliyev elə bir beynəlxaq toplantı, konfrans olmayıb ki, orada Azərbaycan həqiqətlərini dünyaya çatdırmasın. BMT, NATO kimi nüfuzlu təşkilatların tribunasından işğalçı Ermənistanın məkrli siyasətini ifşa edən Cənab İlham Əliyev tutarlı arqument və faktlarla bu ölkənin rəhbərini dəfələrlə çıxılmaz vəziyyətə salıb. Davos Dünya İqtisadi Forumuna dəvət edilən Cənab İlham Əliyev son 14 il ərzində, həyata keçirilən yeni inkişaf konsepsiyası, iqtisadi islahatlar nəticəsində, Azərbaycanın əldə etdiyi uğurlardan danışaraq, ölkəmizin etibarlı tərəfdaşlarının sayını artırıb.

Son 14 il ərzində ölkənin siması köklü surətdə yenilənib və modernləşmə Azərbaycanın müasir tarixinin fərqləndirici xüsusiyyətinə çevrilib. Bakı dünyanın ən gözəl şəhərlərindən biri kimi şöhrət qazanıb və bölgələrdə həyatın keyfiyyəti köklü surətdə dəyişdirilib. Respublikamızın iştirakçısı və təşəbbüskarı olduğu layihələr tarixi uğurlar qazandırıb. Azərbaycandakı əlverişli investisiya mühiti də xarici şirkətlərin diqqətini cəlb edib. İndi ölkəmiz dünyada etibarlı investor kimi tanınır. İqtisadiyyatına, ilk növbədə, neft-qaz sənayesinə xarici sərmayə cəlb etməyə çalışan Azərbaycan, artıq özü digər ölkələrə sərmayə yatırır. İqtisadiyyata son 14 ildə 231 milyard dollar sərmayə qoyulub. 2003-cü ildəki 1,8 milyard dollarlıq valyuta ehtiyatları 15 ildə 24 dəfə artaraq, 44 milyarda yüksəlib. 2003-cü ildə 6 milyard manat olan dövlət büdcəsi indi 20 milyard manatdır. Bununla yanaşı, son 14 il ərzində, əzəmətli infrastruktur layihələrinin miqyası inşa olunan 12 min 300 kilometr müasir yollarda, 443 körpü və yol qovşağında, qazlaşdırmanın 93 faizə çatdırılmasında, əhalinin içməli su ilə təminatının 67 faizə yüksəlməsində ifadə olunur.

Cənubi Qafqazın və ətrafın coğrafiyasını dəyişdirməyə qadir olan möhtəşəm layihələrin təşəbbüskarı missiyasını qətiyyətlə öz üzərinə götürən Azərbaycan regional iqtisadiyyatın lokomotivinə çevrilib, Avropanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından biri kimi özünü təqdim edib. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, "Azəri-Çıraq-Günəşli" yatağı ilə bağlı müqavilənin uzadılması, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizində işlərin davam etdirilməsi, Yeni Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının, iri enerji layihələrinin, qlobal əhəmiyyətli iqtisadi zonaların yaradılması, "ASAN Xidmət" kimi Azərbaycan brendinin dünyaya təqdim edilməsi, məhz Cənab Prezidentin iradəsi sayəsində həyata keçirilib. Bu gün qarşıda duran əsas vəzifələrdən biri isə "Cənub Qaz Dəhlizi"nin vaxtında təhvil verilməsidir. Artıq bütün maliyyə resursları təmin edilib və Azərbaycan öz liderlik missiyasını uğurla icra edir. Bu tarixi layihəni - 7 ölkəni, qitələri birləşdirən, 3500 kilometr məsafəsi olan və dənizin altından, dağların başından keçən qaz kəmərini Azərbaycan uğurla həyata keçirir. Bu, tarixi layihə ölkəmizin uğurlu və dayanıqlı inkişafı üçün əsas resurs bazasıdır.

Növbəti illərdə önəmli, tarixi nəqliyyat layihələrini yenə də icra etməklə, Azərbaycan Avrasiyada nəqliyyat mərkəzlərinin birinə çevriləcək. Bütün bu uğurları isə Prezident İlham Əliyev belə dəyərləndirib: "Son 14 il ərzindəki reallıqlar bunu göstərir ki, verilən bütün vədlər artıqlaması ilə yerinə yetirildi. Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır". Dövlət başçısının söylədiyi kimi, icra edilən köklü iqtisadi islahatlar, bölgələrdəki infrastruktur layihələri həm ölkəmizin ümumi inkişafına böyük təkan verdi, həm də Azərbaycanın nəhəng transmilli infrastruktur layihələri Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişdi.

Yeni Azərbaycan Partiyasının VI Qurultayında Cənab İlham Əliyev bu fəaliyyətini belə dəyərləndirib: "2003-cü ildə prezident seçkiləri ərəfəsində, bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir". Həqiqətən də, 2003-cü ildən bu günə qədər keçən dövrə nəzər saldıqda, aydın şəkildə görərik ki, bu illər Azərbaycanda sürətli inkişaf dövrü keçmiş və ölkəmiz dünyada analoqu olmayan iqtisadi templərlə inkişaf etmişdir. Ölkə qarşısında duran bütün vəzifələr icra olunmuş, 2003-cü ildə və ondan sonrakı illərdə verilmiş bütün vədlər həyatda öz əksini tapmışdır. O xalq, o cəmiyyət xoşbəxtdir ki, onun idarəçiliyi dincliyə və əmin-amanlığa söykənir. Bununla yanaşı, onun dincliyi, əmin-amanlığı, bir sözlə, bütün taleyi onu idarə edən müdriklərin çiynindədir. Təcrübə göstərir ki, xalq hər zaman bu ağır yükü daşımağa qadir olan belə yüksək ləyaqətli tarixi şəxsiyyətlərini, liderlərini dəstəkləyir, onların ardınca gedir, onlara inanır və arxalanır.

Qurultayda xalqa müraciət edən Cənab İlham Əliyev bir daha bildirdi ki, əgər prezident seçkilərində Azərbaycan xalqı Ona yenidən yüksək etimad göstərərsə, ləyaqətli xidmət missiyasını uğurla davam etdirəcək. Bu mənada, Azərbaycan xalqı aprelin 11-də seçkilərə gedib, Cənab İlham Əliyevə səs verməklə, növbəti 7 il ərzində Azərbaycanın inkişafına, tərəqqisinə, sabitliyinə və əmin-amanlığına təminat verəcəklər.

***"Səs" Analitik Qrupu***

# Meydan TV ermənilərlə sıx işləyir
















Xaricdə fəaliyyət göstərərək Azərbaycan haqqında qeyri-obyektiv və qərəzli materiallar yayan bir sıra təşkilatların, internet saytlarının, ayrı ayrı jurnalistlərin, müxalifət fəallarının fəaliyyətini istiqamətləndirən və maliyyələşdirən mənbələr haqqında çox danışılıb. Burada ABŞ-ın dövlət büdcəsindən maliyyələşən strukturların, Avropa İttifaqının, Corc Soros kimi rəngli inqilab ixracatçılarının və digərlərinin adları çəkilib. Lakin bütün bunlara rəğmən, bəzilərinin paralel olaraq erməni lobbisi, Ermənistan dövləti ilə əməkdaşlığına dair kifayət qədər faktlar ictimaiyyətin diqqətinə çatdırılıb.

Xezerxeber.az məlumat verir ki, bu günlərdə apardığımız araşdırma nəticəsində Emin Millinin rəhbərlik etdiyi Meydan TV-nin ermənilərlə yaxından əməkdaşlıq əlaqələri qurduğu və iş birliyi həyata keçirdiyinə dair yeni faktlar meydana çıxıb. Məlum olub ki, bu resurs özünün anti-Azərbaycan təbliğatını həm də erməni əsilli Anton Kamaryan adlı şəxslə birlikdə həyata keçirir.

Əldə etdiyimiz məlumata əsasən, A.Kamaryan erməni əslilli Gürcüstan vətəndaşıdır və hazırda Tbilisidə yaşayır. O, 2006-2010-cu illərdə Suxumi Dövlət Universitetinin "Riyaziyyat və kompüter elmləri" fakültəsində informasiya texnologiyaları ixtisası üzrə bakalavr, 2013-2018-ci illərdə isə magistr təhsili alıb. 2011-ci ildən müxtəlif şirkətlərdə veb-proqramçı olub. Hazırda Gürcüstanda "ForSet" təşkilatında veb-proqramçı vəzifəsində işləyir və paralel olaraq Meydan TV-nin layihələrində fəal şəkildə çalışır.

A.Kamaryan ardıcıl şəkildə Ermənistana səfərlər edir, internetdə onun bu ölkənin dövlət strukturları ilə yaxın təmaslarına dair faktlar kifayət qədərdir. Kamaryanın Ermənistan xüsusi xidmət orqanları ilə sıx əlaqələri vardır. Yerevanda hazırlanmış bir sıra materialların məhz onun vasitəsilə Meydan TV-yə ötürüldüyü və sonrakı mərhələdə sosial şəbəkələrdə fəal istifadə edildiyi şübhə doğurmur. Belə demək mümkündürsə A.Kamaryan hazırda Ermənistanın dövlət strukturları ilə Meydan TV arasında vasitəçi funksiyasını yerinə yertirir.

Digər araşdırmamız zamanı Meydan TV-nin erməni lobbisi ilə yaxın əlaqələrinə dair ciddi falktlar meydana çıxıb. Əminliklə demək olar ki, bu saytla yaxından əməkdaşlıq edən digər erməni əsilli şəxs onun erməni lobbisi ilə əlaqələrində vasitəçi rolunu oynayır, həm maliyyə, həm də sifarişləri çatdırır. Bu barədə bir az sonra ətraflı məlumat veriləcəkdir.

# Milan Məhkəməsindən şər-böhtançılara sərt şillə

*Elxan Süleymanov: "Azərbaycandakı ermənilərə və ermənipərəstlərə dəstək verən hər kəsə dərin hüznlə başsağlığı verirəm"*



Azərbaycanın dünyada yeri və rolu artdıqca, bəzi qaranlıq dairələrin də ölkəmiz əleyhinə qarayaxma kampaniyaları, şər və böhtanları da geniş xarakter alır. Ən acınacaqlısı odur ki, "sapı özümüzdən olan baltalar" xarici müəmmalı dairələrlə iş birliyinə gedib, onların layihələrinin icraçılarına çevrilməyə çalışırlar. Bu istiqamətdə adlarını hüquq müdafiəçisi qoyub, əslində, hüquqa zidd addımların atılmasına və qərarların verilməsinə çalışanlardan olan Leyla və Arif Yunuslar, Xədicə İsmayılova, Emin Milli, Emin Hüseynov və digərləri daha çox fəallıq göstərirlər. Hətta Leyla və Arif Yunuslar, eləcə də, X.İsmayılova AŞPA-da çıxış edərək, ölkəmizə qarşı sərt qərarların qəbul olunmasına çağırışlar ediblər. Nə qədər milli mənliyini, milli heysiyyətini itirəsən ki, doğulub boya-başa çatdığın vətəninə və xalqına düşmən kəsiləsən. Təbii ki, belələrinin damarında azərbaycanlı qanı axdığına şübhələr var. Bu şəxslər açıq şəkildə ölkəmizin əleyhinə çıxış etməklə, birbaşa erməni lobbisinin əlində alət olduqlarını nümayiş etdirirlər.

## Şər-böhtan təsdiqini tapmadı

Sözügedən şəxslər beynəlxalq tədbirlərdə Azərbaycanın milli və dövlətçilik maraqlarına zərər vurmaqla yanaşı, ölkəmizin mənafeyindən çıxış edənləri də hədəfə alırlar. Belə hədəfə alınan şəxslərdən biri də İtaliyanın tanınmış siyasətçisi, Avropa Şurasının Parlament Assambleyasındakı Avropa Xalq Partiyasının prezidenti Luka Volente olmuşdur. Onun haqqında hər cür ittiahmlar səsləndirən qondarma hüquq-müdafiəçiləri və onların təlimat aldıqları xarici təmsilçiləri iddia edirdilər ki, guya L.Volentenin Azərbaycanın mövqeyini müdafiə etməsinin kökündə italiyalı deputatın 2013-cü ildə Azərbaycan hökumətindən 2 milyon 390 min avro həcmində rüşvət alması dayanır. Şərin Azərbaycanda geniş şəkildə yayılması üçün cəmiyyətdə nifrət obyekti olan müxalif partiya funksionerləri də hərəkətə keçib, sosial şəbəkələr və təsir altında saxladıqları saytlarda hay-küy qaldırmışdılar. İddia olunmuşdur ki, guya rüşvətin L.Volenteyə verilməsində Azərbaycandan olan deputatlar Elxan Süleymanov və Müslüm Məmmədov vasitəçilik ediblər. Ünvanlanan donoslara və dedi-qodu xarakterli çıxışlara əsaslanan və heç bir dəqiqləşdirmə aparmayan İtaliyanın "İl Fatto" qəzeti İtaliyanın AŞPA-dakı nümayəndə heyətində təmsil olunan deputat L.Volentenin 2013-cü ildə Azərbaycan hökumətindən 2 milyon 390 min həcmində avro rüşvət alması barədə məqalə dərc etmişdir. Həmin məqaləyə istinad edən Əli Kərimlinin danışan dili, deyən sözü olan Gültəkin Hacıbəyli mətbuata verdiyi açıqlamasında cəfəng fərziyyələr irəli sürürək, iddia etmişdir ki, L.Volente aldığı rüşvət hesabına Azərbaycanın AŞPA-da qeyri-leqal lobbiçilik fəaliyyətini həyata keçirmişdir: "Düzü, bu barədə konkret faktlarla danışmaq mümkün deyil. Bizim əlimizdə olan yeganə fakt İtaliyanın Milan Prokurorluğunun İtaliyanın nümayəndə heyətinin keçmiş rəhbəri və AŞPA-nın keçmiş vitse-prezidenti L.Volente ilə apardığı araşdırmalardır".

## Milan Məhkəməsi Azərbaycanla siyasi korrupsiyada ittiham olunan Volonteyə bəraət verib

Göründüyü kimi, Ə.Kərimlinin sözçüsü rolunda çıxış edən G.Hacıbəyli bu məsələdə konkret faktlara malik olmadığını etiraf edir, amma danışır. Çünki belə göstəriş və tapşırıq alıb. Məsəl var, deyərlər, "yalan ayaq tutar, amma yeriməz". Azərbaycana qarşı şər və yalan yazanlar da ədalət qarşısında ifşa olundular. İtaliyanın "İl Fatto" qəzetində L.Volentenin Azərbaycan hökumətindən rüşvət alması barədə dərc olunan yazıya əsasən, aparılan məhkəmə prosesinə son qoyulub. Məhkəmə Azərbaycanla siyasi korrupsiyada ittiham olunan L.Volenteyə bəraət verib. Bu barədə açıqlama verən millət vəkili Elxan Süleymanov bildirib ki, məhkəmə ədalətli qərar çıxarmaqla yazılanların əsassız olduğunu nümayiş etdirdi: "Bu gün Milan Məhkəməsində Avropanın 2 ildən çoxdur, yaratdığı şər və böhtan kampaniyasının qurbanına çevrilmiş Avropanın tanınmış siyasətçilərindən olan Luka Volontenin çirkli pulların yuyulması ilə bağlı məhkəmə prosesi başa çatdı. Luka Volonte uzun sürən təhqir və mənəvi əzablardan Milan Məhkəməsinin qərarı ilə bəraət aldı".

"Ölkəmə, mənə və Luka Volonteyə qarşı Avropanın şər və böhtan kampaniyasının bütün təşkilatçılarına, ermənilərə, Azərbaycandakı ermənilərə və ermənipərəstlərə dəstək verən hər kəsə dərin hüznlə başsağlığı verirəm", - deyə E.Süleymanov qeyd edib.

Bir sözlə, bir daha Azərbaycana qarşı qərəzin haqsız olduğu və bu böhtanların eyni mərkəzdən idarə olunduğu sübuta yetirildi. Yəqin ki, L.Volonte ilə bağlı yalan yazanlar və səsləndirənlər Milan Məhkəməsinin qərarına da bir don geydirməyə çalışacaqdır. Çünki onların məqsədləri haqqı danmaq və uğurlara kölgə salmaqdan ibarətdir.

**İ.ƏLİYEV**

# Biz qarşıdan gələn prezident seçkilərinə möhtəşəm nailiyyətlə gedirik

*YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynovun yap.org.az-a müsahibəsi*

***- Aydın müəllim, fevralın 8-də Yeni Azərbaycan Partiyasının VI Qurultayı keçirildi. Qurultay barədə təəssüratlarınız necədir?***

- Yeni Azərbaycan Partiyasının VI Qurultayı ölkəmizin ictimai-siyasi həyatında ən mühüm hadisələrdən biridir. Ümumiyyətlə, partiyamızın hər bir tədbiri, xüsusilə qurultayları cəmiyyəti, vətəndaşları maraqlandıran, düşündürən, eyni zamanda digər ictimai-siyasi təşkilatların diqqətində olan məsələdir. Nə üçün? Çünki YAP iqtidar partiyasıdır, cəmyyətdə ən aparıcı qüvvədir, Ümummilli lider Heydər Əliyevin nurlu zəkasından yaranan partiyadır. Və yarandığı gündən Heydər Əliyev ideyalarına sadiq qalan partiyamız bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə fəaliyyət göstərərək cəmiyyətin maraqlarını ifadə edir. Partiyamızın əsas prinsipləri dövlətçilik, qanunçuluqdur və bu kimi prinsiplərə söykənən YAP və onun üzvləri ölkəmizin inkişafı prosesində fəal şəkildə iştirak edir.

Yeni Azərbaycan Partiyası təkcə regionda yox, dünyada ən mütərəqqi siyasi təşkilatlardan biri kimi tanınır. Bilirsiniz ki, partiyamız ötən illər ərzində bir sıra beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edib. Bunların sırasında İCAPP-ın bir sıra tədbirlərini qeyd etmək olar. Hansı kimi bu təşkilat özündə 350-dən çox siyasi partiyanı birləşdirir. Bütün bunların fonunda partiyamızın qəbul etdiyi qərarlar, xüsusilə onun qurultayları diqqətlə izlənilir.

Ümumiyyətlə, YAP-ın VI Qurultayı ilə bağlı təəssüratlarım çox yüksəkdir. Onu da deyim ki, qurultayın Ulu öndər Heydər Əliyevin adını daşıyan Mərkəzdə keçirilməsi də rəmzi məna daşıyır. Qurultayımızın belə bir möhtəşəm mərkəzdə keçirilməsi də yaddaqalan, partiyamızın tarixində xüsusi bir yer tutan hadisədir.

***- Qurultay aprelin 11-də keçiriləcək prezident seçkilərində partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin namizədiliyinin irəli sürülməsi haqqında qərar qəbul etdi. Hazırda da bu qərar cəmiyyətimizdə ən geniş müzakirə olunan və dəstəklənən hadisə olaraq gündəmin əsas mövzusudur. Sizcə, partiyamızın qurultayının belə yüksək səviyyədə dəstəklənməsinin əsasında hansı amillər dayanır?***

- Yeni Azərbaycan Partiyasının VI Qurultayının qərarı tarixi bir qərardır. Bu qərarı partiyamızın yüzminlərlə üzvü alqışlayır. Təsadüfi deyil ki, bu qərar hazırda cəmiyyətimizdə ən geniş müzakirə olunan məsələdir. Çünki YAP-ın VI Qurultayında cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi bütün xalqımızın arzu və istəyidir. Bu da təsadüfi deyil. Çünki cənab İlham Əliyev dövlət başçısı olaraq "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" devizinə sadiq qalıb, Onun həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan bütün sferalarda böyük inkişaf yolu keçib.



Azərbaycanda partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevə rəqib ola biləcək siyasi qüvvə yoxdur. Çünki Prezident İlham Əliyev bütün fəaliyyətində Heydər Əliyev ideyalarına sadiqdir və Ümummilli liderimizin müəyyən etdiyi inkişaf strategiyasını uğurla davam və inkişaf etdirir, Onun fəaliyyətinin başlıca amalı dövlətə və xalqa xidmət etməkdir. Prezident İlham Əliyev hər zaman vədinə əməl edən liderdir. Dövlət başçısı ilə vətəndaşlar arasında qarşılıqlı inam və etimad var. Bütün bunların nəticəsidir ki, ölkəmizdə sabitlik və vətəndaş həmrəyliyi hökm sürür. Bu mənada, partiyamızın IV Qurultayının qəbul etdiyi qərar Azərbaycan xalqının ürəyincədir.

***- Rəhbərlik etdiyiniz YAP Qaradağ rayon təşkilatı seçki kampaniyası ilə əlaqədar nə kimi tədbirlər həyata keçirir?***

- Bilirsiniz ki, Yeni Azərbaycan Partiyası iştirak etdiyi bütün seçkilərdə qalib gəlib. Bunun səbəbi odur ki, Ulu öndər Heydər Əliyevin qurucusu olduğu partiya və onun seçkilərdəki namizədlərinin cəmiyyətdə nüfuzu həmişə yüksək olub. Eyni zamanda, partiyamız seçki qanunvericiliyinin tələblərinə, demokratik prinsiplərə uyğun şəkildə seçki kampaniyası aparır, eləcə də, hər zaman müasir seçki texnologiyalarından səmərəli istifadə edir. Yəni, partiyamızın gündəlik fəaliyyəti seçkilərlə bağlıdır. YAP təkcə seçki kampaniyaları dövründə yox, həmişə seçki məsələləri ilə məşğul olur. Partiyamız ötən seçkilərin nəticələrini geniş şəkildə araşdırır, eləcə də növbəti seçkilərlə bağlı perspektivləri, proqnozları təhlil edir. Ən başlıcası YAP-ın əsas məqsədi qurmaq, yaratmaq, ölkənin gələcək inkişafı naminə bütün imkanları səfərbər etməkdir.

YAP-ın Qaradağ rayon təşkilatı da partiyanın fəal yerli strukturlarından biridir. Bizim əsas vəzifəmiz partiya rəhbərliyinin, İcra katibliyinin tövsiyə və tapşırıqlarını layiqincə yerinə yetirməkdən ibarətdir. Bu günlərdə Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun sədrliyi ilə partiyanın rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirildi. Müşavirədə prezident seçkiləri kampaniyası ilə əlaqədar partiyanın yerli strukturlarına konkret tapşırıqlar verildi, fəaliyyət proqramı təqdim olundu. Buna uyğun olaraq Qaradağ rayon təşkilatı da iş planını hazırlayıb, 19 nəfərdən ibarət seçki qərargahımız formalaşdırılıb. İş planına uyğun olaraq seçki tədbirlərimiz mərhələli şəkildə davam etdirilir. Hazırda seçki məntəqələrində məşvərətçi səs hüquqlu üzvlərimizin, müşahidəçilərimizin müəyyən olunması işləri gedir. Ümumilikdə, çalışırıq ki, iş planında nəzərdə tutulan məsələləri vaxtlı-vaxtında yerinə yetirək.

Bilirsiniz ki, cənab İlham Əliyev 1995-ci ildə Qaradağ rayonundan millət vəkili seçilmişdi və on ilə yaxın müddətdə parlamentdə rayonumuzu təmsil edib. Bu, YAP Qaradağ rayon təşkilatı üçün qürurvericidir. Cənab İlham Əliyev o zaman millət vəkilimiz olaraq təşkilatımızın konfranslarında iştirak edib, mütəmadi olaraq rayonumuza səfər edib, insanlarla daim görüşlər keçirib. Yəni, Qaradağ rayon ictimaiyyəti üçün bu, xüsusilə yaddaqalan hadisələrdir. Daha sonra cənab İlham Əliyev dövlət başçısı kimi dəfələrlə rayonumuza səfər edib. Prezidentimizin hər bir səfəri yeni-yeni obyektlərin, müəssisələrinin təməlinin qoyulmasının və ya açılışının edilməsi ilə müşaiyət olunub. Bütün bunların hamısı rayon ictimaiyyətinin hörmətli Prezidentimizə inamını, etimadını və sevgisini daha da gücləndirib. Biz də YAP Qaradağ rayon təşkilatı olaraq çalışırıq ki, öz fəaliyyətimizlə partiyamızın Sədri, ölkə başçısı İlham Əliyevin etimadını doğrultmağa çalışırıq. Bu mənada təşkilatımız seçki kampaniyasının uğurla həyata keçirilməsi üçün öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaq.

***- Aydın müəllim, son 15 ildə Azərbaycan bütün sahələr üzrə inkişaf edib. Sizcə, partiyamız prezident seçkilərinə hansı uğurlarla gedir?***

- Əlbəttə ki, 2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hər bir sahədə böyük uğurlar qazanıb. Ötən 15 il ərzində Azərbaycan istər siyasi, istər iqtisadi, istərsə də beynəlxalq sahələrdə böyük nailiyyətlər qazanıb. Azərbaycanda aparılan davamlı və uzunmüddətli iqtisadi islahatlar nəticəsində ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri sırasındadır.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə Azərbaycanın artan iqtisadi imkanları iqtisadiyyatın bütün sahələrinin paralel inkişafına yönəlib, Azərbaycanda insan kapitalının inkişafına böyük investisiyalar qoyulub. Ölkəmizin hər bir guşəsində böyük fabriklər, zavodlar, səhiyyə müəssisələri, idman və sağlamlıq kompleksləri, müxtəlif müəssisələr istifadəyə verilib. Son illər dünyada təlatümlərin, iqtisadi böhranın davam etməsinə baxmayaraq, Azərbaycanda inkişaf tendensiyası davam edir. Ötən 15 ildə iqtisadiyyatımız 3.2 dəfə artıb, 1.9 milyon yeni iş yeri açılıb. Bu dövrdə 3 mindən çox məktəb, 600-dən artıq tibb müəssisəsi tikilib istifadəyə verilib və ya yenidən qurulub. Uşaq və gənclərin sağlam həyat sürməsi, ölkəmizdə güclü idmançı nəslinin yetişməsi üçün 43 Olimpiya İdman Kompleksi inşa olunub. 265 min köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Əlbəttə ki, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı işlərin bir hissəsidir.

Son 15 ildə Azərbaycanın təşəbbüsü və dəstəyi ilə böyük, transmilli iqtisadi, enerji və nəqliyyat layihələri bütün dünya üçün böyük əhəmiyyət kəsb etməklə, regionun inkişafına layiqli töhfələr verir. Eləcə də, Bakı-Tbilisi-Qars dəmir yolu, TAP, TANAP layihələri, Şimal-Cənub nəqliyyat dəhlizi layihələri bütövlükdə dünya üçün əhəmiyyətlidir. Bu faktor Azərbaycana iqtisadi dividentlər gətirməklə yanaşı ölkəmizin beynəlxalq müstəvidə nüfuzunu da əhəmiyyətli dərəcədə artırır. Azərbaycan 2011-ci ildə 155 dövlətin dəstəyi ilə iki il müddətinə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib və bu dövrdə dünyada sülh və təhlükəsizliyin təmin olunmasına, insan haqlarının müdafiəsinə mühüm töhfələr verib. Eləcə də, Azərbaycan kosmos dövlətləri sırasında özünün layiqli yet turur.

Həmçinin, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi özünü təsdiq edib, ölkəmiz nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilib. Ölkəmizdə "Eurovision", birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula - 1 yarışları kimi, bütün dünyanın diqqət mərkəzində olan mühüm mədəniyyət və idman tədbirləri keçirilib. Təbii ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, Azərbaycan xalqının və dövlətinin mənafeyinin ən yüksək səviyyədə qorunmasına yönəlmiş qlobal fəaliyyət hər bir azərbaycanlı tərəfindən yüksək qiymətləndirilir və cənab Prezidentin yorulmaz fəaliyyəti xalqımızın bütün təbəqələri tərəfindən dəstəklənir. Eyni zamanda, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə dövlətimizin inkişafında xüsusi xidmətlər göstərir.

Onu da qeyd etmək istəyirəm ki, ötən 15 ildə ölkəmiz müdafiə qabiliyyətini də xeyli gücləndirib. Bu gün Azərbaycan Ordusu ən güclü ordular sırasındadır. Ordumuz işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Bunu 2016-cı ilin aprel döyüşləri bir daha təsdiqlədi.

Bu mənada, düşünürəm ki, biz qarşıdan gələn prezident seçkilərinə möhtəşəm nailiyyətlə gedirik. Hesab edirəm ki, bu nailiyyətlər partiyamızın namizədinin növbəti parlaq qələbəsini şərtləndirən əsas amildir.

## "2018-ci ildə dövlət investisiya xərclərinin artırılması qeyri-neft sektorunun inkişafını dəstəkləyəcək"

Azərbaycanın makroiqtisadi göstəricilərində 2017-ci ildən başlanan pozitiv dinamikanın bu il də davam edəcəyi gözlənilir. 2018-ci ildə dövlət investisiya xərclərinin artırılması qeyri-neft sektorunun inkişafını dəstəkləyəcək. AZƏRTAC xəbər verir ki, bu barədə vergilər naziri Mikayıl Cabbarov "Vergilər. Şəffaflıq. İnkişaf" adlı konfransda çıxışında bildirib.

Nazir qeyd edib ki, ölkə rəhbərliyinin qeyri-neft sektorunda alternativ gəlir mənbələrinin yaradılması, ixracatın stimullaşdırılması istiqamətində qəbul etdiyi proqramların icrası, aqroparkların, sənaye park və zonalarının yaradılması, ölkənin tranzit və logistik potensialının yüksəldilməsi həm ümumi iqtisadi aktivliyə, həm də büdcə gəlirlərinə müsbət təsir göstərəcək. Bununla yanaşı, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri", habelə iqtisadiyyatın 12 əsas sektoru üzrə təsdiq olunmuş Strateji Yol xəritələri üzrə tədbirlər həyata keçirilməkdədir. İqtisadiyyatın ayrı-ayrı istiqamətlərinin inkişafı, biznes subyektlərinin rəqabət qabiliyyətinin artırılması, investisiyaların cəlbi, dünya bazarlarına çıxış bu gün ölkəmizin qarşısında duran əsas hədəflərdir.

## Xalq Artisti Elza İbrahimovanın xatirəsi yad ediləcək

Fevralın 15-də Azərbaycan Bəstəkarlar İttifaqında tanınmış bəstəkar, Xalq Artisti Elza İbrahimovanın anadan olmasının 80 illiyinə həsr olunmuş xatirə tədbiri keçiriləcək. AZƏRTAC-a bu barədə Bəstəkarlar İttifaqının mətbuat xidmətindən məlumat verilib. Tədbirdə bəstəkarın həyat və yaradıcılığı haqqında məruzələr dinləniləcək, Azərbaycan Dövlət Triosu, Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansambl və solistlərin iştirakı ilə vokal və kamera-instrumental əsərlər səsləndiriləcək.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Fevralın 13-də parlamentin sədri Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə 19 məsələdən ibarət gündəlik təsdiqlənib.***

“Konstitusiya Məhkəməsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə məlumat verən hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, sənədə əlavə olunan 73.9-cu maddəyə əsasən, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycandan seçilmiş hakimin statusu Konstitusiya Məhkəməsi hakiminin statusuna bərabər tutulacaq. Bu dəyişiklik Avropa Məhkəməsinə seçilmiş hakimin Konstitusiya Məhkəməsinin hakimi üçün nəzərdə tutulmuş təminatlardan istifadəsinə hüquqi əsas yaradır. Sənəd səsə qoyulub və qəbul edilib.

Sonra iclasda Ramiz Rzayevin Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi, Qasım Əliyevin isə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi məsələlərinə baxılıb. Milli Məclis hər iki təyinata razılıq verib.

“Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi”nə dair hesabatı parlamentə ədliyyə nazirinin müavini Vilayət Zahirov təqdim edib. Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təkmilləşməsində Milli Məclisin qəbul etdiyi qanunların əhəmiyyətini xüsusi vurğulayan məruzəçi bildirib ki, 2017-ci ildə qəbul edilmiş “Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında” Qanun, həmçinin bələdiyyələrin maliyyəsinin əsasları, bələdiyyə qulluğu, yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında qanunlara edilmiş dəyişikliklər bu sahədə şəffaflığın artmasına, əmək münasibətlərinin tənzimlənməsinə şərait yaradıb.

Ədliyyə Nazirliyi Milli Məclisin Regional məsələlər komitəsi və Bələdiyyələrin Milli Assosiasiyaları ilə birgə regionlarda təşkil edilən konfranslarda bələdiyyə üzvlərinin və qulluqçularının fəal iştirakını, eləcə də bələdiyyələrin işinə inzibati nəzarətin həyata keçirilməsini təmin edib. 2017-ci ildə 220 maarifçilik tədbiri keçirilib. Həmin tədbirlərə 9 min 649 bələdiyyə üzvü və qulluqçusu cəlb olunub.

Deputatlara məlumat verilib ki, hesabat dövründə vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılıb. Şikayətlər əsasında araşdırmalar aparılıb, müvafiq tədbirlər görülüb. Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinə daxil olan 64 min 788 bələdiyyə aktının hər biri hüquqi ekspertizadan keçirilib, qanunvericiliyə uyğunluğu yoxlanılıb. 1979 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün müraciət olunub, 740 akt ləğv edilib, 714 akt dəyişdirilib.



Nazir müavini bələdiyyələrin fəaliyyətində rast gəlinmiş nöqsanlardan da söz açıb. Torpaq sahəsinin qanunsuz icarəyə verilməsi, bələdiyyə vəsaitlərinin mənimsənilməsi, büdcə vəsaitlərinin qanunsuz silinməsi və digər məsələlərlə bağlı qanun pozuntuları ilə bağlı 15 fakt üzrə cinayət işi başlanıldığını qeyd edib. Vurğulanıb ki, ümumilikdə ötən il torpaq qanunvericiliyinin pozulması halları 2016-cı ilə nisbətən 3 dəfədən çox azalıb.

İllik məruzə dinlənildikdən sonra müzakirələr başlanıb. Deputatlar Elmira Axundova, Əli Məsimli, Fazil Mustafa, Qüdrət Həsənquliyev, Çingiz Qənizadə, Qənirə Paşayeva, Kamran Bayramov, İsa Həbibbəyli məruzə haqqında fikirlərini bildiriblər. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2017-ci ildə səmərəli fəaliyyət göstərdiyi qeyd olunub.

Səsvermə yolu ilə parlament bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsini qəbul edib.

Sonra iclasda Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov Azərbaycan Prezidentinin imzası ilə parlamentə daxil olmuş “Ələt azad iqtisadi zonası haqqında” qanun layihəsini təqdim edib. Diqqətə çatdırıb ki, bu sənəd 3 komitənin - Təbii ehtiyatlar, energetika və ekologiya, İqtisadi siyasət, sənaye və sahibkarlıq, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında ətraflı müzakirə olunub. Qanun layihəsi Prezident Sərəncamına əsasən təşkil edilmiş işçi qrupu tərəfindən hazırlanıb. 5 fəsil, 30 maddədən ibarət qanun layihəsini geniş şərh edən işçi qrupunun rəhbəri, Milli Məclis sədrinin müavini Valeh Ələsgərov qeyd edib ki, sənəd hazırlanarkən mütəxəssislər, hüquqşünas və ekspertlər dünyada gedən proseslərə ciddi diqqət yetiriblər. Azad iqtisadi zonalara dair beynəlxalq qanunvericilik dərindən öyrənilib və ən uğurlu nəticələr verən, investorlar üçün əlverişli şərait yaradan müddəalar əsas götürülüb.

Məlumat dinlənildikdən sonra birinci oxunuşda müzakirələrə başlanıb. Sənədin əhəmiyyətini yüksək dəyərləndirən deputatlar Əli Məsimli, Tahir Kərimli, Qüdrət Həsənquliyev, Aydın Hüseynov, Mahir Abbaszadə təkliflərini səsləndiriblər. Layihə konseptual baxımdan məqbul sayılıb. Çıxışlarda “Ələt azad iqtisadi zonası haqqında” qanun layihəsini hazırlayan işçi qrupuna təşəkkür ifadə olunub.

Fasilədən sonra qanun layihəsinin müzakirəsi davam etdirilib. Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov qeyd edib ki, Ələt azad iqtisadi zonasının fəaliyyəti ölkəmizin ixrac potensialını gücləndirəcək, iqtisadiyyatın inkişafına və rəqabətqabiliyyətliliyinin artmasına təkan verəcək. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli vurğulayıb ki, azad iqtisadi zonaların yaradılması və belə bir qanunun qəbul edilməsi iqtisadiyyatın inkişafının və liberallaşdırılmasının indiki mərhələsində irəliyə doğru atılmış çox böyük addımdır. Deputatlar Elşən Musayev, Şəmsəddin Hacıyev, İlham Əliyev qeyd ediblər ki, layihə azad iqtisadi zonaların fəaliyyəti üçün müvafiq hüquqi təminat yaradacaq, azad iqtisadi zonaların fəaliyyəti əhalinin məşğulluğuna da töhfə verəcək.

Fikir mübadiləsinə yekun vuran Valeh Ələsgərov deputatları narahat edən məqamlara aydınlıq gətirib, bu sahədə mövcud beynəlxalq qanunvericiliyə istinadən sualları cavablandırıb.

İclasda “Ələt azad iqtisadi zonası haqqında” qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra parlamentdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan hökuməti ilə Benilüks Dövlətləri hökuməti arasında xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Sazişi şərh edib. Sənəd təsdiq olunub.

İclasda iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə “Azərbaycan hökuməti ilə Macarıstan hökuməti arasında avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları haqqında” Saziş barədə məlumat verib. Milli Məclis sənədi ratifikasiya edib.

Milli Məclis sədrinin müavini Valeh Ələsgərovun şərhi dinlənildikdən sonra parlament “Energetika haqqında”, “Elektroenergetika haqqında”, “Elektrik və istilik stansiyaları haqqında” və “Qaz təchizatı haqqında” qanunlara təklif olunan dəyişiklikləri qəbul edib.

İclasda Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov “Meliorasiya və irriqasiya haqqında”, Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə “Bələdiyyələrin su təsərrüfatı haqqında” qanun layihələrinə təklif olunan dəyişikliklər barədə məlumat veriblər. Bildirilib ki, hər iki sənəd qanunvericiliyin uyğunlaşdırılması məqsədi daşıyır, ötən il Su Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlıdır. Deputatlar hər iki qanun layihəsinin qəbulunu məqsədəuyğun sayıblar.

Plenar iclasda “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunun 5-ci və 20-ci maddələrinə dəyişiklik edilməsi barədə qanun layihələri də qəbul olunub.

Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov “Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” Azərbaycan Respublikası medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Qanunda dəyişikliklər edilməsi barədə məlumat verib. Deputatlar qanunun lehinə səs veriblər.

Plenar iclasda İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsini şərh edən komitə sədri Əli Hüseynli bildirib ki, 598-ci maddədə söhbət cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulduğu hallardan gedir. Məcəlləyə edilən bu dəyişiklik Avropa Şurasının Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) tövsiyəsinin icrası məqsədilə hazırlanıb. Milli Məclis qanunun qəbul edilməsini məqsədəuyğun hesab edib.

Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli “Əlilliyi olan şəxslərin hüquqları haqqında” qanun layihəsi barədə məlumat verib. Bildirib ki, 8 fəsil, 40 maddədən ibarət qanun layihəsi komitənin iclasında ictimaiyyətin və əlillərin iştirakı ilə geniş müzakirə olunub və təqdir edilib. Müzakirələrdə belə bir qanunun vacibliyini önə çəkən deputatlar Fazil Mustafa, Tahir Rzayev, Elşən Musayev, Jalə Əliyeva, Qənirə Paşayeva, Hikmət Məmmədov irad və təkliflərini bildiriblər.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Natiq Məmmədov deputatları maraqlandıran suallara cavab verib.

Yekunda “Əlilliyi olan şəxslərin hüquqları haqqında” qanun layihəsi səsə qoyulub və konseptual baxımdan birinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaranmasının altıncı ildönümü geniş qeyd edilib





***Fevralın 13-də Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaranmasının altıncı ildönümü münasibətilə təntənəli mərasim keçirilib.***

AZƏRTAC xəbər verir ki, Xidmətin rəisi, general-leytenant Arzu Rəhimov tədbirdə çıxış edərək şəxsi heyətə təbriklərini çatdırıb. A.Rəhimov bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı ilə uğurla davam etdirilən ordu quruculuğu prosesi yeni mərhələyə qədəm qoyub. Bu gün Azərbaycan Ordusu istənilən an düşmənə sarsıdıcı zərbə vurmaq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Ordumuzda ruh yüksəkliyi və vətənpərvərlik hissləri olduqca yüksəkdir. 2016-cı ilin Aprel döyüşləri bunu nəinki düşmənə, bütün dünyaya nümayiş etdirdi.

Bu gün müstəqil Azərbaycanın ordu quruculuğu prosesinin ölkə siyasətinin prioritetlərindən olduğunu və bu istiqamətdə işlərin uğurla davam etdirildiyini vurğulayan A.Rəhimov bildirib ki, ordu dövlətin suverenliyini və ərazi bütövlüyünü təmin edən əsas qüvvə kimi dövlət quruculuğunun tərkib hissələrindən biridir.

Xidmətin yarandığı gündən genişmiqyaslı tədbirlər həyata keçirdiyini deyən A.Rəhimov qeyd edib ki, səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların hərbi qeydiyyata alınması, hərbi xidmətə hazırlanması və müddətli həqiqi hərbi xidmətə çağırılmasının təşkili, Silahlı Qüvvələrin çağırışçılarla komplektləşdirilməsi, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığı, habelə vətəndaşların qəbulu və müraciətlərinə baxılması, korrupsiyaya qarşı mübarizə, maddi-texniki və qanunvericilik bazalarının təkmilləşdirilməsi, eləcə də digər sahələrdə əhəmiyyətli nəticələr əldə edilib. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində böyük inkişaf yolu keçərək ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə layiqli töhfə verib və bu proses davam etməkdədir.

Diqqətə çatdırılıb ki, çağırış yaşına çatmış gənclərin müddətli həqiqi hərbi xidmətə cəlb edilməsi Xidmətin fəaliyyətinin mühüm istiqamətlərindəndir. Hazırda müharibə şəraitində olan ölkəmizdə səfərbərlik hazırlığı və müddətli həqiqi hərbi xidmətə çağırış işi Xidmətin üzərinə əlavə məsuliyyətlər qoyur. Bu məsələlərin yüksək səviyyədə yerinə yetirilməsi məqsədilə bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib. Ümumtəhsil müəssisələrində çağırışaqədərki hazırlıq fənninin tədrisinin müvafiq əsasnamənin tələblərinə uyğun təşkili və keçirilməsinin yoxlanılması, həmçinin əməli köməyin göstərilməsi mütəmadi olaraq nəzarətdə saxlanılıb.

Qeyd olunub ki, korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması istiqamətində tədbirlər sırasında mühüm yeri vətəndaşlara elektron xidmətlərin göstərilməsi tutur. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti də bu istiqamətdə mühüm nailiyyətlər əldə edib. Çağırışçılar müddətli həqiqi hərbi xidmətlərini hansı qoşun növündə, yaxud hərbi hissədə keçmələri barədə məlumatları SMS vasitəsilə öyrənə bilirlər. Ötən müddətdə elektron xidmətlərlə yanaşı, qurumun əməkdaşlarının "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərməsi də müsbət dəyişikliklərdəndir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti də bu işə töhfə verib.

A.Rəhimov əminliklə bildirib ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hər bir əməkdaşı bundan sonra da ümummilli liderimiz Heydər Əliyev ideyalarına sadiq qalacaq, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin üzərimizə qoyduğu vəzifələrin öhdəsindən layiqincə gələrək, daha böyük nailiyyətlər əldə etməyə çalışacaq. Sonra Xidmətin fəaliyyəti ilə bağlı film nümayiş olunub.

Tədbirdə çıxış edən Gəncliyə Yardım Fondunun prezidenti Ahmet Tecim, "Azərbaycan Əfqanıstan Müharibəsi Veteranları" İctimai Birliyinin sədri Məhəmməd Vəliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü Emin Həsənli çıxış edərək Xidmətin yaranmasının ildönümü münasibətilə təbriklərini çatdırıb, altı il ərzində görülən işləri yüksək qiymətləndiriblər. Sonda Xidmətin bir qrup hərbi qulluqçusunun təltif edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları oxunub, xidmətdə fərqlənən hərbi qulluqçular və əməkdaşlar mükafatlandırılıb.

# Azərbaycan müəllimlərinin təşəbbüs qrupu prezident seçkiləri ilə əlaqədar bəyanat yayıb

***Azərbaycan müəllimlərinin təşəbbüs qrupu aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar bəyanat yayıb.***



Azərbaycan müəllimlərinin təşəbbüs qrupundan AZƏRTAC-a daxil olan bəyanatda deyilir ki, Yeni Azərbaycan Partiyasının (YAP) fevralın 8-də keçirilmiş VI qurultayında Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə yekdilliklə qəbul edilən tarixi qərar ölkənin hər bir vətəndaşı, hər bir azərbaycanlı, hər bir müəllim tərəfindən rəğbətlə qarşılanıb, geniş ümumxalq dəstəyi qazanıb.

Millətimizin arzu və istəklərinin tərcümanı, kamil cəmiyyətin yaradıcısı, dünənlə bu gün, bu günlə sabah arasında ən etibarlı mənəvi körpünün simvolu olan Azərbaycan müəllimləri də bu tarixi qərarın əhəmiyyətini dərindən dərk edərək, milli müstəqilliyimizin parlaq gələcəyinin qarantına olan sarsılmaz inamı nəzərə alaraq bu bəyanatı yayır.

Bəyanatda deyilir ki, müstəqil Azərbaycan çağdaş tarixinin ən şərəfli dövrünü yaşayır. Prezidentimiz İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərliyi Azərbaycanın müstəqillik tarixinin əsl intibah, inkişaf mərhələsi olub, dünyada dövlətimizin qüdrəti və siyasi nüfuzu möhkəmlənib, Vətənimiz regionun lider dövlətinə çevrilib.

2003-cü ildə prezident seçkiləri öncəsi ulu öndər Heydər Əliyevin İlham Əliyev haqqında uzaqgörənliklə söylədiyi "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" müdrik kəlamının həqiqət olduğunu tarix və zaman bütün dünyaya göstərdi. Belə ki, Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu, milli inkişaf siyasətini dönmədən və uğurla həyata keçirərək ölkənin sosial-iqtisadi və mədəni həyatının davamlı inkişaf strategiyasını formalaşdırdı.

Digər sahələrdə olduğu kimi, müstəqil Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan milli təhsil quruculuğu və siyasəti də məhz Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə dönməz xarakter alıb, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası yönündə uğurlu addımlar atılıb.

Bu illərdə təhsilin inkişafı ilə bağlı bir çox dövlət proqramları qəbul edilib, onların icrası nəticəsində bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəriciləri yüksəlib, uşaq və gənclərin təhsilalma imkanlarının genişləndirilməsi, müasir idarəetmə modellərinin tətbiqi, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilməsi, ümumi təhsil müəssisələrinin pedaqoji və rəhbər kadrlarla təminatı, müəllim fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması, tədris resurslarının məzmunca yeniləşdirilməsi, maddi-texniki və tədris bazasının müasirləşdirilməsi, təhsil sisteminin müasir informasiya-kommunikasiya texnologiyaları ilə təminatı, sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təşkili sahələrində əhəmiyyətli nailiyyətlər əldə edilib.

Sevindirici haldır ki, 2013-cü ildə prezident seçkilərindən dərhal sonra İlham Əliyevin imzaladığı ilk sənəd - XXI əsrdə təhsilin inkişafının "yol xəritəsi" sayılan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" olub. Bunu ölkə Prezidentinin təhsilə diqqət və qayğısının böyük təzahürü hesab edir və yüksək qiymətləndiririk. Hazırda həmin strategiyada müəyyənləşdirilən hədəf və istiqamətlər üzrə islahatlar dövlət başçısının rəhbərliyi və qayğısı ilə uğurla davam etdirilir.

Prezident İlham Əliyevin həyata keçirdiyi "Qara qızılı insan kapitalına çevirmək" siyasəti nəticəsində ölkəmizdə insan kapitalının inkişafı sahəsində böyük uğur qazanılıb, "2007-2015-ci illərdə Azərbaycanlı gənclərin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində dünyanın aparıcı universitetlərində 3558 nəfər azərbaycanlı gənc ali təhsil almaq imkanı qazanıb ki, onlardan 1470 nəfəri artıq məzun olub. Hesab edirik ki, müstəqil Azərbaycanın intellektual potensialının zənginləşməsində, rəqabətədavamlı kadrların formalaşmasında bu addım müstəsna tarixi əhəmiyyətə malikdir.

Bəyanatda qeyd edilir ki, son 14 ildə ümumi təhsil müəssisələrinin infrastrukturunun yeniləşdirilməsi sahəsində daha böyük uğurlara imza atılıb, ötən dövrdə 3104 yeni məktəb binası tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Ölkənin ən ucqar kəndlərində belə az şagird kontingenti olan məktəb binalarının yeniləşdirilməsi məqsədilə modul tipli məktəblərin qurulmasına başlanılıb, 2017-ci ildə 106 belə məktəb quraşdırılıb, cari ildə onlardan 137-sinin istifadəyə verilməsi nəzərdə tutulur. Dövlətimizin başçısının böyük diqqət və qayğısı ilə həyata keçirilən bütün bu tədbirlər ümumi təhsildə keyfiyyətin yüksəlməsinə öz töhfəsini verir, xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır.

Dünya ölkələrində baş verən qeyri-sabit maliyyə vəziyyətlərinə baxmayaraq, son illərdə Azərbaycanda müəllimlərin əməyinin stimullaşdırılması sahəsində aparılan köklü islahatlar nəticəsində ümumtəhsil məktəblərində çalışan 140 min nəfərdən çox müəllimin vəzifə maaşı iki dəfə artırılıb, dövlət başçısının rəhbərliyi ilə aparılan uğurlu təhsil siyasəti nəticəsində cəmiyyətdə müəllim nüfuzu əhəmiyyətli dərəcədə yüksəlib.

Ölkə Prezidenti İlham Əliyevin 2003-2017-ci illərdə imzaladığı sərəncamlarla təhsilin inkişafında müstəsna xidmətləri olan 2000-dək müəllim fəxri adlara və müxtəlif dövlət təltiflərinə layiq görülüb.

"Bu, bir həqiqətdir ki, Azərbaycan müəllimləri hər zaman dövlət başçısının siyasətinin təbliğatçıları və dəstəkçiləri olublar. Bu, bizim prinsipial mövqeyimizdir və həmişə də belə olacaq. Çünki İlham Əliyev ilk dəfə prezident seçilərkən "Mən hər bir vətəndaşın prezidenti olacağam" vədinə sadiqliyini əməli fəaliyyəti ilə sübut edib. Azərbaycan müəllimləri prezident seçkilərində öz ənənəsinə sadiq qalaraq prezident seçkilərində Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevin namizədliyini dəstəkləyir və ölkə ictimaiyyətini də seçkilərdə fəallıq göstərərək ona səs verməyə çağırır", - deyə bəyanatda qeyd edilir.

# Multikulturalizm yay və qış məktəbləri nəticəsində xaricdə ölkəmizin haqq işini dəstəkləyən güclü lobbi formalaşıb








***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə Bakıda işə başlayan "Sivilizasiyalararası dialoq: yeni çağırışlar" adlı VI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları fevralın 13-də Şamaxıya gəliblər. AZƏRTAC xəbər verir ki, VI Beynəlxalq Multikulturalizm Qış Məktəbində Azərbaycan, Avstriya, Əfqanıstan, Bolqarıstan, Estoniya, Gürcüstan, Almaniya, İndoneziya, Yaponiya, Monteneqro, Norveç, Polşa, Portuqaliya, Rusiya, Böyük Britaniya və Ukraynanın aparıcı universitetlərindən 30-dək tələbə iştirak edir.***

VI Beynəlxalq Multikulturalizm Qış Məktəbi çərçivəsində Şamaxıda mühazirələr dinlənilib. Azərbaycan Dillər Universitetinin Azərbaycan multikulturalizmi elmi-tədqiqat laboratoriyasının müdiri İrina Kunina tələbələr qarşısında "Azərbaycanda etnik müxtəliflik" və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Sərxanbəy Xuduyev "Azərbaycan multikulturalizmi fənninin xarici ölkələrdə tədrisi" mövzularında mühazirələr söyləyiblər.

İrina Kunina mühazirəsində eyniadlı videoçarxın müşayiəti ilə tələbələrə Azərbaycanın multikultural durumu, etnik mənzərəsi haqqında məlumat verərək deyib: "Azərbaycan polietnik dövlətdir. Xalq titul etnosdan - Azərbaycan türklərindən və milli azlıqlardan - udinlərdən, ingiloylardan, qrızlardan, xınalıqlardan, buduqlardan, tatlardan, talışlardan, ləzgilərdən və başqa azsaylı xalqlardan ibarətdir. Bu xalqlar Azərbaycan türkləri ilə birlikdə vahid polietnik Azərbaycan xalqını təşkil edir. Həmçinin ölkəmizdə ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar da yaşayırlar. Təkcə Bakıda 20-dən çox müxtəlif mədəni icma fəaliyyət göstərir. Ümumiyyətlə, etnik azlıqların yığcam yaşadıqları bütün rayonlarda belə icmalar mövcuddur".

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Sərxanbəy Xuduyev isə mühazirəsində BBMM Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayevin ideya və dərs proqramının müəllifi olduğu "Azərbaycan multikulturalizmi" fənninin xarici və ölkədaxili universitetlərdə tədrisi layihəsinin əhəmiyyətindən söz açıb və bu layihə vasitəsilə beynəlxalq ictimaiyyətin ölkəmizin multietnik və çoxkonfessiyalı durumu haqqında məlumat əldə etmək imkanı olduğunu vurğulayıb. "Bu fənn hazırda ölkəmizin 38, dünyanın 18 nüfuzlu universitetində tədris edilir. Fənnin tədrisində məqsəd Azərbaycanı dünyaya başqa rakursdan təqdim etmək, xalqımızın tolerantlıq ənənələrini, multikultural dəyərlərini beynəlxalq ictimaiyyətə tanıtmaqdır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Prezident İlham Əliyevin Azərbaycan multikulturalizmini dünyada tanıtmaq istiqamətində müəyyənləşdirdiyi hədəflərin gerçəkləşməsinə öz layiqli töhfələrini verir. Bu layihə çərçivəsində Azərbaycan multikulturalizmi fənninin tədris olunduğu xarici ölkə universitetlərinin sayı ildən-ilə artmaqdadır", - deyə S.Xuduyev diqqətə çatdırıb.

Mühazirələrdən sonra tələbələrin sualları cavablandırılıb. Xarici ölkələrdən olan tələbələr əsasən almanların, yəhudilərin, xınalıqlıların, malakanların Azərbaycanda məskunlaşmaları ilə bağlı suallar veriblər.

Tədbirdə VI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi baxımından əhəmiyyəti barədə AZƏRTAC-ın müxbirinin suallını cavablandıran BBMM-in şöbə müdiri Yadigar Məmmədli deyib: "Beynəlxalq multikulturalizm qış və yay məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır. Layihə çərçivəsində ölkəmizin, eləcə də dünyanın bir sıra ölkələrinin universitetlərində Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan qış və yay məktəblərinin məqsədi həmin gənclərin nəzəri şəkildə öyrəndikləri multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmalarına şərait yaratmaqdır. Qış məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural durum, tolerant şərait, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşaması haqqında mühazirələr təqdim edilir".

Yadigar Məmmədli bildirib ki, artıq ənənəyə çevrilən multikulturalizm yay və qış məktəblərinin nəticəsi olaraq xaricdə Azərbaycanın gənc dostlarının və onların yaxın çevrəsinin timsalında ölkəmizin haqq işini dəstəkləyən intellektual gənclərdən ibarət ünsiyyət platforması və güclü lobbi formalaşıb. İntensiv şəkildə davam edən bu proses sübut edir ki, Prezident İlham Əliyevin Azərbaycanın dünyada tanıdılması istiqamətində müəyyənləşdirdiyi hədəflər uğurla reallaşmaqdadır. Günün ikinci yarısında tələbələr və onları müşayiət edənlər Şamaxı şəhəri, o cümlədən Cümə məscidi, Şamaxı rəsədxanası, "Safari park" ilə tanış olub, yerli icmaların nümayəndələri ilə görüşüblər.

## Tərtərdə "700 min ağac əkək" kampaniyası davam edir



Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi münasibətilə "700 min ağac əkək" kampaniyası çərçivəsində YAP Tərtər rayon təşkilatı və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Bərdə Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin rayonun Buruc-Hüləbətli kəndləri ərazisində yerləşən meşə zolağının daha 2,5 hektar sahəsində 3 min ədəd ağac əkilmişdir. Beləliklə, YAP rayon təşkilatı, ümumilikdə, meşə zolağında 7 min ədəd ağacın əkinini başa çatdırmışdır.

Ağacəkmə kampaniyasında iştirak edən rayonun idarə, müəssisə və təşkilatlarında çalışan yüzlərlə YAP üzvləri böyük həvəslə iştirak etmişlər.

Aparılan kampaniyada təbiətin və ekoloji mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması istiqamətində çoxsaylı tədbirlər və layihələr həyata keçirilir. Dövlət başçısı Cənab İlham Əliyevin diqqət ayırdığı sahələrdən biri kimi, yaşıllıq sahələrinin genişləndirilməsi işi Tərtər rayonunda da uğurla həyata keçirilir.

**ZÜMRÜD**

## MDB PA-dan olan müşahidəçilər qrupu Azərbaycan Prezidenti seçkilərinin monitorinqində iştirak edəcək




Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının (MDB PA) sədri, Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkoya MDB PA-dan olan müşahidəçilər qrupunun 2018-ci il aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlığı və keçirilməsinin gedişi ilə bağlı monitorinqdə iştirak etməsi üçün dəvətnamə göndərib. Bu barədə AZƏRTAC-a MDB Parlamentlərarası Assambleyanın mətbuat xidmətindən bildirilib.

Məlumatda deyilir ki, Oqtay Əsədov öz məktubunda Azərbaycan Respublikasının MDB Parlamentlərarası Assambleya ilə hərtərəfli, o cümlədən seçkilərin və referendumların müşahidəsi sahəsində əlaqələrin inkişafına və dərinləşdirilməsinə böyük əhəmiyyət verdiyini xüsusilə qeyd edib.

Parlamentlərarası Assambleya MDB PA iştirakçı-ölkələrin parlamentarilərindən, həmçinin MDB PA Şurası Katibliyinin əməkdaşlarından və Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının demokratiyanın inkişafı, parlamentarizm və vətəndaşların seçki hüquqlarına riayət olunması üzrə Beynəlxalq Monitorinq İnstitutunun (MDB PA DİMBİ) ekspertlərindən ibarət müşahidə qrupunu yaradıb Azərbaycan Respublikasına göndərəcək.

MDB PA DİMBİ-nin ekspertləri və DİMBİ-nin Bakı filialının əməkdaşları uzunmüddətli monitorinq mərhələsində Azərbaycan Respublikası seçki qanunvericiliyinin beynəlxalq seçki standartlarına uyğunluğunu təhlil edəcək, həmçinin Azərbaycan Respublikası Prezidenti seçkilərinin gedişində elektoral prosesləri və qanunverici, icra və məhkəmə orqanlarının fəaliyyətini xarakterizə edən informasiya materiallarının toplanmasını və ekspert dəyərləndirilməsini həyata keçirəcək.

# Dini radikalizm və ekstremizmə qarşı alternativ vasitə kimi vətənpərvərlik hissi gücləndirilməlidir





***Fevralın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Sumqayıt Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini radikalizm" mövzusunda seminar-müşavirə keçirilib.***

Seminar-müşavirədə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri, eyni zamanda, bu qurumların Sumqayıt şəhəri, Abşeron, Xızı, Qobustan, Zəngilan və Qubadlı rayon strukturlarının məsul nümayəndələri, ziyalılar, dindarlar və ictimai fəallar iştirak ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbir DQİDK-nın sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filminin nümayişi ilə başlayıb. Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Teymur Səmədov çıxış edərək mövzunun aktuallığından danışıb, şəhərdəki dini vəziyyət barədə ətraflı məlumat verib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov tədbirin keçirilməsində əsas məqsədin Azərbaycanda dini radikalizmə və ekstremizmə qarşı mübarizə sahəsində görülən işlərin və qarşıda duran vəzifələrin müzakirəsi olduğunu bildirib. O, dini radikalizmi yaradan səbəblər və radikal cərəyanların törətdiyi fəsadlardan, dünyada, xüsusilə Yaxın Şərqdə dini radikalizm və ekstremizmin acınacaqlı nəticələrindən söz açaraq, dinin siyasiləşdirildiyi və ya siyasi oyunlar üçün alət olduğu ölkələrin böyük fəlakətlərlə üzləşdiyini diqqətə çatdırıb.

Ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik, əmin-amanlıq, dövlət-din münasibətlərinin sağlam şəkildə qurulmasından da danışan S.Heydərov Azərbaycandakı multikultural və tolerant dəyərlərin bütün dünya üçün örnək olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin Sərəncamı ilə təsis edilmiş Azərbaycan İlahiyyat İnstitutunun əhəmiyyətindən bəhs edən DQİDK-nın sədr müavini ali məktəbin yaradılmasını dövlət başçımızın dövlətçiliyə, milli-mənəvi dəyərlərimizə bağlı, vətənpərvər, yüksək ixtisaslı kadrların hazırlanmasına, eləcə də xalqımızın tarixi ənənələrinə söykənən dini-mənəvi mühitin qorunub saxlanılmasına verdiyi yüksək diqqətin daha bir nümunəsi adlandırıb.

Yeni yaradılan institutda dini yazarların yetişdiriləcəyini və araşdırmaların aparılacağını deyən S.Heydərov bildirib ki, burada məqsəd gəncləri yad dini ideologiyalardan qorumaqdır. Vurğulayıb ki, bu gün ölkədə dini radikalizm və ekstremizmə qarşı alternativ vasitə vətənpərvərlik hissinin gücləndirilməsidir və ona görə də bu kimi maarifləndirmə tədbirlərinin keçirilməsi əhəmiyyətlidir.

DQİDK sədrinin müavini sonda radikalizmə qarşı mübarizədə fəallığın vacibliyini diqqətə çatdırıb və insanları daha məsuliyyətli olmağa çağırıb. Tədbirdə, həmçinin Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov, Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev mövzu ilə bağlı çıxış edib, təmsil etdikləri qurumların dini radikalizmlə mübarizə istiqamətində həyata keçirdikləri profilaktik və inzibati tədbirlərdən söz açıblar. Natiqlər dini radikalizmin ictimai təhlükəsizliyə açıq təhdid olduğunu bildirərək, müştərək mübarizənin vacibliyini vurğulayıblar.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin Sumqayıt üzrə səlahiyyətli nümayəndəsi Rauf Sərdarov dövlətimizin başçısına dindarlara göstərdiyi qayğı üçün təşəkkürünü bildirib. O, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-din münasibətlərinin bu gün ölkəmizin inkişafına böyük töhfə verdiyini və dindarların daim bütün məsələlərdə dövlətin yanında olduğunu söyləyib. Seminar-müşavirə mövzu ətrafında fikir mübadiləsi ilə davam edib.

# Ekspert: Moody's-in hesabatında Azərbaycandakı iqtisadi proseslərin müsbət qiymətləndirilməsi önəmli amildir



Moody's beynəlxalq reytinq agentliyinin hesabatında Azərbaycanda gedən iqtisadi proseslərin müsbət qiymətləndirilməsi önəmli amildir. Moody's ekspertlərinin gəldikləri qənaət bundan ibarətdir ki, Azərbaycanda iqtisadi şaxələndirmə ilə bağlı aparılan islahatlar ortamüddətli və uzunmüddətli dövrdə dayanıqlı iqtisadiyyatın güclənməsinə və genişlənməsinə xidmət edəcək. Bu fikirləri AZƏRTAC-a açıqlamasında İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri, iqtisadçı ekspert Vüqar Bayramov bildirib.

Ekspert qeyd edib ki, agentlik Azərbaycan iqtisadiyyatındakı sektorları ayrı-ayrılıqda dəyərləndirib. Moody's Azərbaycanda turizmi, beynəlxalq yükdaşımaları ayrıca xarakterizə edib və bu sahələrdən əldə edilən vəsaitlərdə artım olacağını proqnozlaşdırır. Agentlik Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində hökumətin apardığı islahatları və təşviqedici siyasəti müsbət dəyərləndirib. Hesabatda dəyərləndirildiyi kimi, təşviqedici siyasət və fiskal konsolidasiya ilə yanaşı, islahatlara maliyyə dəstəyi Azərbaycan iqtisadiyyatının dayanıqlılığını artıran amildir. İqtisadiyyatdakı artım dövlət vəsaiti hesabına baş verəcək. Bundan başqa, hesabatda Azərbaycan hökumətinin qeyri-neft sektorunun müxtəlif sahələrinin inkişafını sürətləndirdiyi qeyd olunur.

"Hesabatda bildirilir ki, 2016-cı ilin dekabrında Prezident İlham Əliyev tərəfindən Strateji Yol xəritələri imzalanaraq qüvvəyə minib. Yol xəritələrində qeyd edilən sahələr arasında daha çox turizm, nəqliyyat və logistika inkişaf edib. Turizm infrastrukturunun inkişafı növbəti illərdə Azərbaycana əlavə turist axınına səbəb olacaq. Bundan başqa, Azərbaycan Çini və Mərkəzi Asiyanı Avropa (Şərq-Qərb dəhlizi), Rusiyanı İran və Cənubi Asiya (Şimal-Cənub dəhlizi) ilə birləşdirən əsas nəqliyyat və logistika mərkəzinə çevrilmək niyyətindədir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı artıq Xəzər dənizinin ən böyük limanı hesab edilir. Limanın Ələtdə ilk mərhələsinin qurulması isə 2018-ci ilin ortalarına təsadüf edəcək. Yeni liman azad ticarət zonasında yerləşməklə Bakının beynəlxalq hava limanı və dəmir yollarını əhatə edəcək ki, bununla da Azərbaycanın nəqliyyat infrastrukturu Rusiya, Gürcüstan və Türkiyə (Bakı-Tbilisi-Qars), eləcə də İranla birləşməklə daha da inkişaf edəcək.

Sənəddə o da qeyd olunub ki, Azərbaycan hökumətinin şaxələndirmə planları fiskal xərclər hesabına başa gələcək. Vergi və gömrük təşviqatı qeyri-neft sektorunun inkişafının bir hissəsidir. Qiymətləndirməyə görə, təkcə nəqliyyat və logistika mərkəzinin qurulması üçün infrastruktur üzrə investisiya xərcləri 2017-ci ildə ümumi daxili məhsulun 5 faizinə bərabər olub", - deyə ekspert bildirib.

# Qanunsuz Miqrantların Saxlanılması Mərkəzində Hindistan vətəndaşlarının hər hansı şikayəti yoxdur



Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər nəticəsində ölkədə qeyri-qanuni yaşadıqları aşkar edilmiş və Xidmətin Bakı şəhər Qanunsuz Miqrantların Saxlanılması Mərkəzində yerləşdirilmiş Hindistan vətəndaşlarının saxlanma şəraiti barədə bəzi xəbər saytlarında həqiqətə uyğun olmayan məlumatlar dərc edilib.

Bununla əlaqədar AZƏRTAC-ın foto və video çəkiliş qrupu və jurnalistləri Bakı şəhər Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə dəvət ediliblər. Agentliyin nümayəndələri Mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olub, adından məlumat yayılmış Hindistan vətəndaşı Hossain Abdulla ilə görüşüb və ondan müsahibə alıb.



Hossain Abdulla AZƏRTAC-a müsahibəsində deyib: "Saxlanılan zaman həyəcanlı olduğum üçün Hindistan Respublikasının Baş nazirinə saxlanılma şəraitim ilə bağlı müraciət etdim. Lakin mənim heç bir problemim yoxdur. Gün ərzində üç dəfə yeməklə təmin olunuram. Otaqda isə ən çox altı şəxs saxlanılır. Hətta saxlanılma mərkəzində öz aramızda bizim milli yeməkləri bişirən Hindistan vətəndaşı da var və o, milli yeməklərimizi yeyirik. Bütün xidmət işçilərinin bizə münasibətindən razıyam. Heç bir şikayətim yoxdur. Buradan ailəmə də bildirmək istəyirəm ki, mənimlə bağlı narahat olmasınlar. Hər şey öz qaydasındadır və tezliklə ölkəmə qayıdacağam".

Dövlət Miqrasiya Xidməti bəyan edir ki, Hindistan vətəndaşları Qanunsuz Miqrantların Saxlanılması Mərkəzində altı nəfər olmaqla saxlanırlar. Onlar gündə üç dəfə normal qida ilə təmin edilirlər və xidmət personalından hər hansı şikayətləri yoxdur.

Ümumiyyətlə, Qanunsuz Miqrantların Saxlanılması mərkəzlərində yaradılmış şərait beynəlxalq standartlara tam cavab verir. Bu mərkəzlərdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının qorunması üçün bütün zəruri tədbirlər görülüb. Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Uliyam Leysi Sinq də Azərbaycana səfəri zamanı bu mərkəzlərdə yaradılmış şəraiti çox yüksək qiymətləndirib.

# Efir məkanında uğurlara imza atan 62 yaşlı Azərbaycan Televiziyası

***Azərbaycan tarixində hər zaman xatırlanan və yaşadığımız illərin sorağı ilə salnamələri vərəqləməyə vadar edə biləcək əhəmiyyətli hadisələr kifayət qədərdir və bu reallıqları əks etdirən tarix xalqın ictimai-siyasi və mədəni həyatında xüsusi mahiyyət kəsb edir.***

Sözsüz ki, xalqın ictimai-siyasi və mədəni həyata inteqrasiya olunması birbaşa onun maarifləndirilməsi ilə əlaqədar olduğundan, milli mətbuatın, informasiya vasitələrinin bu istiqamətdə rolu danılmazdır. Elə Azərbaycan Televiziyasının yarandığı gün 14 fevral tarixi xalqın ictimai fikir tarixində yeni bir gün - əvəzsiz zamandır. Həmin tarix hər zaman xatırlanır. Azərbaycan xalqının həyatına böyük yenilik gətirdiyi üçün yazılı tariximizdə - salnamələrdə yer alıb. Azərbaycanda XX əsrin ən möhtəşəm kəşflərindən olan və hər gün insanlarla ünsiyyət yaradan, cəmiyyət həyatında əvəzsiz yer tutan televiziya bir əsrə yaxın bir məsafədə informasiya liderliyini qoruyub saxlaya bilib. Dünya dəyişir, yenilənir, amma xalqın maarifləndirilməsi, əxlaqi-estetik tərbiyəsi, məlumatlandırılması kimi təməl prinsiplərini fəaliyyət məqsədinə çevirən televiziya istənilən məkanda tamaşaçıların dostu olaraq, hər nəslin müasirinə çevrilir. İstənilən bir yeniliyi, informasiyanı, dünya panoramasını bir neçə dəqiqə ərzində cəmiyyətə ötürərək, onun informasiyaya olan tələbatını ödəyir.

Etiraf edək ki, inkişaf etmiş dünyamızda nə qədər yeniliklər olmuş olsa da, televiziyanın yeri və rolu əvəzedilməzdir. Hər bir insan yeni gününün ilk dəqiqələrini, məhz televiziyanın qarşısında keçirir. Sanki bir tələbat və asılılıq yaranıb televiziyadan.

Azərbaycanda - Şərqdə ilk dəfə yaradılan və milyonların seyrçisi olan Azərbaycan Televiziyası 1956-cı il fevralın 14-də fəaliyyətə başlayıb. Bu, Stalin rejimindən qurtuluş tapan Sovet cəmiyyətində aşkarlığın rüşeymlərinin yenicə yaranan dövrünə təsadüf edirdi.Bakı Televiziya Mərkəzi üçün binanın inşasına 1954-cü ildə başlanıldı və azərbaycanlı inşaatçı və mütəxəssislərin moskvalı, leninqradlı həmkarları ilə birgə ucaltdıqları və müvafiq avadanlıqla təchiz etdikləri teleməkəzin binası 1955-ci ilin sonunda təhvil verildi. 1956-cı ilin fevralına qədər isə Bakı studiyasının ara-sıra sınaq verilişləri yayımlanırdı.

İlk veriliş günü ekranda sonradan Azərbaycanın tanınmış sənətkarına çevriləcək, o dövrdə isə gənc aktrisa olan Nəcibə Məlikova görünüb. Çıxışını "Göstərir Bakı!" kəlməsi ilə açan Nəcibə xanım tamaşaçıları televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik edib. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilib. Bu, televiziyanın yaddaşına və tarixinə yazılan ilk cümlələrə çevrildi.

İlk illərdə Bakı Studiyası əvvəlcə həftədə iki, sonra üç dəfə 2 saatlıq proqramla efirə çıxırdı. 1957-ci ildən Azərbaycan Televiziyası efirə həftədə 5 dəfə çıxmağa başladı və verilişlərin gündəlik həcmi 2 saat 20 dəqiqəyə çatdırıldı. 70-ci illərdən etibarən isə Azərbaycan Televiziyasının gündəlik veriliş və proqramlarının yayım həcmi 10 saata, 80-ci illərdə 18 saata çatdırıldı. 1970-ci ildə televiziya Dövlət Televiziya və Radio Verilişləri Komitəsi statusu aldı. 2005-ci ildən isə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə şirkət "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə çevrildi. Elə həmin ildən televiziya 24 saatlıq fasiləsiz yayıma keçdi.

1956-cı ilin mayında ekranda ilk diktorlar göründülər. Onların arasında Tamara Gözəlova, Nailə Mehdibəyova, Sevda Qənizadə, Sara Manafova, Rəna Nəsirova, Rəxşan Aslanova, Sima Xasıyeva və Nizami Məmmədov var idi. Sonradan televiziyada istedadlı diktorlar nəsli meydana gəldi. Bu sırada Roza Tağıyeva, Rafiq Hüseynov, Ofelya Sənani, Şərqiyyə Hüseynova, Sabir Ələsgərov, Hicran Hüseynov, Həqiqət Əsgərova, Natəvan Hacıyeva, Tamilla Ələkbərova, Davud Əhmədov, Gülşən Əkbərova, Nərgiz Cəlilova, Ülkər Quliyeva, Aygül Qaradağlı, Dilarə Səlimova, Rafiq Həşimov və başqaları yer aldı. Zaman ötdükcə inkişaf və püxtələşmə özünü büruzə verdi.

Proqram saatının artırılması, qabaqcıl texnologiyanın rabitə və telekommunikasiya sistemində tətbiq olunması yeni teleqüllənin ucaldılmasını tələb edirdi. 1979-cu ildə Rabitə Nazirliyi Bakıda 310 metrlik teleqüllənin tikilməsi üçün fəaliyyətə başladı. Təməli 1981-ci ildə qoyulan yeni televiziya qülləsi 1996-cı il iyunun 7-də istifadəyə verildi.

2004-cü ilin fevralından başlayaraq, AzTV-nin proqramlarının Avropa ölkələrində daha keyfiyyətli yayımı təmin edildi. Bu məqsədlə "Teleradio" İstehsalat Birliyinin mütəxəssisləri Teleqüllə Kompleksində yeni rəqəmsal TV - Up-link stansiyasını quraşdırdılar. İndi Azərbaycan Televiziyasının verilişləri həmin stansiyadan Avropaya "Hot Bird" və "SESAT", Şimali Amerikaya "Galaxy 25", Asiyaya "Turksat 1C" peykləri vasitəsilə yayılır.

1970-ci ilə qədər yerli efir məkanında video-texnikasının olmaması televiziyanın inkişafını ləngidirdi. Yalnız 1970-1972-ci illərdə çəkilişlər kinokameranın 16 millimetrlik lenti ilə aparıldıqdan sonra informasiya proqramlarında reportajların göstərilməsinə başlanıldı. 1971-ci ildə istifadəyə verilən təkmilləşdirilmiş "Kadr-2" video-sistemi isə montaj üçün əlverişli şərait yaratdı. 1970-ci ildən Moskva televiziya proqramları rəngli yayımlamağa başladı. Azərbaycan Televiziyası isə 1973-cü ildən yalnız Bakıda rəngli yayıma keçə bildi. 70-ci illərin ortalarından KADR-3R videmaqnitofonundan istifadəyə başlanılması keyfiyyətli elektron montajına şərait yaratdı.

1985-ci ildə Azərbaycan Televiziyası texniki təchizatına, film istehsalı və müxtəlif proqramlarla Mərkəzi Televiziyadakı çıxışlarına görə, SSRİ-də 4-cü yerə çıxdı. Zaman üçün ən qabaqcıl sayılan texniki vasitələr televiziya məkanına yol açdı. Texniki imkanların genişlənməsi verilişlərin keyfiyyətini il-dən-ilə yüksəltdi və yeni formalar axtarıb tapmaqda kömək etdi. 1958-ci ildən başlayaraq, proqramlarda publisistik janra üstünlük verildi və reportajların sayı artdı. Bayram tədbirlərindən, iclaslardan və görüşlərdən birbaşa yayımlar reportajları zənginləşdirən amilə çevrildi. 60-cı illərin sonundan proqramların texniki təminatının yaxşılaşdırılması ilə yanaşı, maraqlı müəllif və rejissor axtarışları da nəzərə çarpırdı. 1960-70-ci illərdə yerli televiziyada "Odlar diyarı", "Dostluq", "Zaman və biz", "Yaddaş: Tarixin səsi" "Sənayemizin üfüqləri", "Tələbə klubu", "Şən və Hazırcavablar Klubu" kimi verilişlər yaranmışdı.

1960-cı il dekabrın 31-də ilk dəfə "Sizinlə birlikdə" Yeni il proqramı nümayiş olundu. Canlı efirdə 2 saatdan artıq davam edən verilişdə musiqi, müsahibə, təbriklər, səhnəcik, bir neçə müəssisədən çəkilmiş süjet və söhbətlərdən istifadə edildi. Proqramın müəllifi və rejissoru Kərim Kərimov, aparıcısı isə xalq artisti Möhsün Sənani idi.

## AZƏRBAYCAN TELEVİZİYASI ÜÇÜN SINAQ DÖVRÜ

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlanması Azərbaycan Televiziyası üçün əsl sınağa çevrildi. Kommunist Partiyasının nəzarəti altında fəaliyyət göstərdiyindən və SSRİ daxilində başlayan münaqişəyə hazır olmadığından, Azərbaycan Televiziyası informasiya siyasətini düzgün qura bilmədi. Separatçıların Xankəndidə keçirdiyi fasiləsiz mitinqlər barədə qısa xəbəri Azərbaycan Televiziyası yalnız 10 gündən sonra - "yuxarı"nın icazəsi ilə "Qarabağda yaranmış durum" adı altında efirə verdi. Sov.İKP Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun və Mərkəzi Komitə üzvlərinin Azərbaycana qarşı tutduqları ədalətsiz mövqeyə qarşı Bakıda başlayan kütləvi nümayişlər zamanı da meydandan birbaşa yayıma TV iki gün gec başladı. Bu isə, AzTV rəhbərliyinin Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovun iradəsinin əleyhinə çıxması nəticəsində mümkün oldu. Azərbaycan Televiziyasının əməkdaşları da xalqla birlikdə Qorbaçovun anti-Azərbaycan siyasətinə və Azərbaycanın o zamankı rəhbərliyinin milli maraqlardan uzaq olan davranışına və addımlarına qarşı çıxaraq Azərbaycan Konstitusiyasına, beynəlxalq hüquq normalarına əməl edilməsini, erməni separatçılarının qanunsuz hərəkətlərinin qarşısının alınmasını tələb edirdi. Azərbaycan Televiziyası ilə çıxış edən siyasi icmalçılar Kremlin Azərbaycana qarşı apardığı siyasətin mahiyyətini, respublikamızda yaranmış idarəolunmaz ictimai-siyasi vəziyyəti və xalqın haqlı tələblər irəli sürdüyünü cəsarətlə dilə gətirirdilər. Moskvadan gələn emissarların Azərbaycan Televiziyası vasitəsilə Kremlin Bakıya qoşun yeritməyəcəyi və fövqəladə vəziyyət elan etməyəcəyi barədə vədlərinə baxmayaraq, 1990-cı il yanvarın 19-da saat 19:26-da Azərbaycan Televiziyasının enerji bloku partladıldı.

Azərbaycan Televiziyasının yayımını yalnız yanvarın 28-də bərpa etmək mümkün oldu. Qara kostyumda və qalstuksuz efirə çıxan diktor Rafiq Hüseynov 131 dinc oğlu və qızı Sovet ordusu tərəfindən qətlə yetirilən xalqımıza başsağlığı verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini elan etdi. Azərbaycan Televiziyası əyalət telekanalından müstəqil dövlətin əsas televiziyasına çevrildi.

1993-cü il iyunun 4-də Gəncədə cərəyan edən hadisələr zamanı əhalinin düzgün məlumatlandırılması baxımından, televiziya çox mühüm rol oynadı. Məlum hadisələr zamanı Bakıya dəvət olunmuş Ümummilli Lider Heydər Əliyev müsahibələrinin, bəyanatlarının, Milli Məclisin iclaslarının canlı yayımına üstünlük verdi. "Talış-Muğan Respublikası" separatizmi, 1994-cü il oktyabr, 1995-ci il mart hadisələri zamanı isə Heydər Əliyev Azərbaycan Televiziyası vasitəsilə ictimaiyyətlə birbaşa ünsiyyət qurdu. Bu böyük siyasətçi dövlətimizə qarşı məkrli plan hazırlayanların bütün əməllərinin necə məharətlə alt-üst edildiyini bütün ictimaiyyətə nümayiş etdirirdi. 1994-cü il oktyabrın 4-də Ulu Öndər Heydər Əliyevin televiziya ilə xalqa müraciət etməsi nəticəsində yüzlərlə insan, o cümlədən, müxalifətçilər də Prezident Aparatının qarşısına yığışaraq, ölkə Prezidentinin siyasi kursunu müdafiə etdiklərini, birmənalı tərzdə bəyan etdilər.

Xronoloji ardıcıllığa nəzər saldıqca, görürük ki, Azərbaycan Televiziyası ölkə telemekanının formalaşmasında böyük rol oynayıb. Sonrakı illərdə Azərbaycan Televiziyası və Radiosunda yetişən peşəkar televiziyaçılar "Lider", "Speys", "İTV" və digər kanallarının yaradılması prosesində yaxından iştirak etmişlər. Bu gün dünya ölkələrində Azərbaycan Televiziyasının proqramları yayımlanır. Tarixi yol Azərbaycan Televiziyasının inkişafına böyük yollar açdı.

## "MUĞAM TELEVİZİYA MÜSABİQƏLƏRİ"

AzTV-nin bütün layihələri həmişə böyük rəğbətlə qarşılanıb. Bu sırada mədəniyyət layihələrini də xüsusi vurğulamaq yerinə düşər. Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Mədəniyyəti Fondunun layihəsi, Azərbaycan Televiziyasının təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin iştirakı ilə keçirilən, muğam sənətini yaşatmağa, gənc istedadları üzə çıxarmağa xidmət edən "Muğam televiziya müsabiqələri" ölkəmizdən kənarda da böyük tamaşaçı sevgisi qazanıb. Bu, hər şeydən əvvəl, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın danılmaz xidmətidir. AzTV bu "SMS"siz yarışma ilə ilk dəfə muğamların həm tədrisinə, həm də maarifləndirməyə doğru bir addım atdı. Hər yarışdan əvvəl dünyasını dəyişmiş korifey sənətkarların ifasını səsləndirmək, bir tərəfdən, gənc ifaçıları məlumatlandırmaq məqsədi daşıyırdısa, digər tərəfdən, muğamın və əsl sənətkarın əbədiyaşarlığını göstərmək idi. Bu müsabiqə sərhədləri aşan, dinindən, dilindən asılı olmayaraq, milyonlarla insanın qəlbini ovsunlayan Azərbaycan muğamının təntənəsi və qələbəsidir. Müsabiqənin bir qalibi var, o da Azərbaycan muğamı və ona dəyər verən dövlət.

62 il əvvəl yaranan Azərbaycan Televiziyası bu gün artıq tamam başqa bir görkəmdədir. Kifayət qədər təcrübəsi, zəngin fondu, müasir texniki təchizatı və peşəkar kadr potensialı kanalın uğurlu dövrünü yaşayır. 2010-cu ildə, AzTV-nin 55 yaşının tamamında onun nəzdində Azərbaycan ziyalılarının və sənətçilərinin çoxdankı arzusu olan "Mədəniyyət" kanalı ilk dəfə tamaşaçıların görüşünə gəldi. Bu kanalın ərsəyə gəlməsi Prezident İlham Əliyevin mədəniyyətimizə qayğısının daha bir təzahürüdür. Bu gün "Mədəniyyət" kanalı Azərbaycan mədəniyyətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təbliğ edir, dünya mədəniyyətinin incilərini isə Azərbaycan tamaşaçılarına çatdırır. Bu kanalın verilişlərini izlədikcə, bir daha bu qənaətə gəlirsən ki, mədəniyyətimizin elə parlaq inciləri var ki, onlar yüz illər sonra da Azərbaycanı yüksək mərtəbədən təmsil edə bilər.

## "İDMAN - AZƏRBAYCAN" TELEKANALI

Azərbaycan Televiziyasının son illərdəki daha bir uğuru 2009-cu il fevralın 1-dən efirə çıxan "İdman-Azərbaycan" kanalıdır. Bu kanal idman ictimaiyyəti və idmanseverlərə gözəl hədiyyə oldu. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan "İdman-Azərbaycan" Televiziyasının fəaliyyəti dövlətimizin idmana və gənclərin sağlam ruhda böyüməsinə verdiyi önəmin sübutudur. Artıq "İdman-Azərbaycan" Televiziyası efir məkanında öz yerini çoxdan təsdiqləyib və fəaliyyət göstərdiyi 9 ildə dövlətimizin idman siyasətinə uğurla xidmət edir. Kanal dünyanın hər yerindən bütün növ idman yarışlarını, müxtəlif çempionatları birbaşa, özü də yüksək peşəkarlıqla yayımlayır və idman xəbərlərini operativliklə tamaşaçılara çatdırır. Hər gün kanalda tamaşaçılara canlı xəbər buraxılışları, orijinal verilişlər, beynəlxalq, ölkədaxili yarış və turnirlər təqdim edilir, çempionatlar canlı yayımlanır. "İdman Azərbaycan" kanalı dünyada yeganə idman kanalıdır ki, heç bir ödəniş olmadan tamaşaçılarına idmanın bütün növləri üzrə proqramlar təqdim edir və açıq yayımdadır.

Bu gün efir məkanında öz sözünü deyə bilən, uğurlara imza atan Azərbaycan Televiziyası 62 yaşını qeyd edir. Öz sözünü deyə bilən, fərqli dəsti -xətti ilə seçilən, ən güclü təbliğat sisteminə çevrilən Azərbaycan Televiziyası Azərbaycan dinləyicisi ilə yol gəlir. Bu yol hələ neçə-neçə onillikləri əhatə edəcək, xalqın milli tarixi, gələcəyi, Azərbaycanın dinamik inkişafı, uğurları, beynəlxalq mövqeyi ilə bağlı bizə çox xəbərləri çatdıracaq. Böyük və ali məqsədə çatmaq üçün uzun bir yola çıxan Azərbaycan Televiziyasının kollektivini təbrik edir və daha əlçatmaz uca zirvələr fəth etməsini arzulayırıq.

**ZÜMRÜD**

# Müsavat İsa Qəmbərdən imtina etdi

***Prezident seçkiləri ilə əlaqədar müxalifət düşərgəsində cərəyan edəcək hadisələri qabaqcadan proqnozlaşdırmaq çox çətindir. Hətta baş verənləri belə təhlil etməyə, səbəbini araşdırmağa çalışarkən, aydın olur ki, verilən qərarların, nəticələrin heç də məntiqi əsası yoxdur və hər bir addımın arxasında məkrli niyyətlər, ambisiyalar, yaxud xarici qüvvələr və onların pozucu ssenarisi dayanır. Bəzən funksionerlərin, liderlərin özləri belə qurumun rəhbəri kimi yox, hansısa bəd niyyətli qüvvələrin marioneti kimi çıxış edir və bu əl buyruqçuluğu funksiyasını icra edir.***

## Məclisin qərarı eks-başqan üçün gözlənilməz oldu və ona şok effekti verdi

Müsavat partiyasının məclisi aprel ayında keçiriləcək prezident seçkilərində iştirak etməkdən imtina etdi və fevralın 10-da qəbul edilən bu qərar, ələlxüsus, İsa Qəmbər üçün gözlənilməz oldu. Partiyanın hələ 4 il öncəki qurultayında 2018-ci il seçkilərinə namizədliyi irəli sürülmüş sabiq başqan, Milli-Strateji Düşüncə Mərkəzinin rəhbəri seçkilərdə namizəd olaraq, iştirak etməkdə qərarlı görünürdü və son bir həftədə onun verdiyi açıqlamalar belə iştirak etmək yönündə idi. Hətta seçkilərin 11 aprelə təyin edilməsi sərəncamından sonra ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin köməkçisi Bricet Brinkin onunla namizəd olacaq şəxs kimi görüşməsi İ.Qəmbərin namizədlik əhval-ruhiyyəsini təsdiqləyir. Müsavat məclisinin son toplantısından iki gün öncə, MSDM-in keçirdiyi toplantının əsas müzakirələrindən biri də seçkilərdə iştirakla bağlı idi. Müsavatın son divan toplantısında müzakirələr zamanı da divan üzvlərindən yalnız üç nəfər seçkilərdə iştirakın əleyhinə olub və qalan 12 nəfər iştirakın lehinə səs veriblər.



Göründüyü kimi, İ.Qəmbərin namizəd olmasına Müsavat məclisi mane olub. Müsavatın keçmiş başqanı da bu dəfə məclisin qərarına hörmətlə yanaşıb. Amma eksbaşqan üçün bu qərar şok effekti verdi. Çünki İ.Qəmbər Arif Hacılını öz yerinə təyin etməkdə, yaxud onun başqan təyin olunması üçün əldən ayaqdan getməsində məqsəd elə seçkilərdə Müsavatın namizədi olaraq, təsdiq olunmaq idi. Bu baxımdan, hadisələrin gedişi İ.Qəmbər üçün heç də ürək açan olmadı.

Müsavat məclisi boykot deyil, seçkilərdə iştirak etməmək qərarı verib. Bunlar bir-birindən kəskin şəkildə fərqlənir. Hərçənd, sosial şəbəkələrdə müzakirə aparanlar və onlarla eyni fikirdə olanlar boykot və iştirak etməmək qərarlarını bir-birindən fərqləndirə bilmədiyi bəlli olur. Şəbəkə qəhrəmanları bu iki qərarı dəyişik salırlar. Boykot seçkilərdə, ümumiyyətlə, iştirak etməmək, tərəfdarlarını seçkilərə getməməyə çağırmaq olduğu halda, iştirak etməmək qərarı tərəfdarlarına azad seçim imkanı vermək deməkdir. Yəni əgər "Milli Şura" boykot qərarı verərək tərəfdarlarını seçkilərə getməməyə çağırıbsa, Müsavat bunun əksi olaraq, tərəfdarlarına seçim imkanı verir.

## Müsavatçılar İsa Qəmbərin seçkilərə qatılmasında maraqlı deyillər

Hadisələrin gedişi, onu deməyə əsas verir ki, Müsavatın nə "Milli Şura", nə də digər bir qurumla fikir ortaqlığı olmayıb və əsl həqiqət ondan ibarətdir ki, müsavatçılar İ.Qəmbərin seçkilərə qatılmasında maraqlı deyillər. Məclisin qərarı və başqan müavini Yadigar Sadıqovun social şəbəkələrdə paylasımları təsdiq etdi ki, müsavatçılar eks-başqan haqqında heç də müsbət fikirdə deyillər. Onların fərqli yanaşmaları İ.Qəmbərin bütün planlarını alt-üst etdi və nəinki müxalifət düşərgəsində, ümumiyyətlə, siyasi səhnədə onun varlığını şübhə altına qoydu. Yəni əgər eks-başqan Müsavatın başqanı, eyni zamanda, prezident seçkilərinə namizəd olmayacaqsa və ümumiyyətlə, seçkilərdə iştirak etməyəcəksə bu zaman o siyasi səhnədə kimdir? Yaxud bu lider bundan sonra nəyə lazımdır və fəaliyyəti nədən ibarət olacaq? Müsbət cavab vermək çətindir və hər halda, bu suala Müsavat partiyası, yaxud İ.Qəmbər özü cavab verməlidir.

Müsavat məclisinin qərarına partiya rəhbərliyində təmsil olunan funksionerlərdən bəziləri münasibət belə bildirməyiblər. Amma MSDM üzvlərinin məclisin qərarına münasibəti birmənalı deyil. Məsələn, MSDM üzvü İsgəndər Həmidov seçkilərə qatılıb, İ.Qəmbərin namizədliyini dəstəkləməyə hazır olduqlarını gizlətmir və hətta seçkilərə getməkdə, onu dəstəkləməkdə israrlı olduğunu bildirir. Həmidov seçkilərə hazır olmadıqlarını və hətta hazırlaşa bilməyəcəklərini də etiraf edir.

Bütün bunlar, o deməkdir ki, Müsavat partiyası seçkilərdə namizəd irəli sürəcəyi təqdirdə, məğlub olacağını dərk edir. Daha doğrusu, dərk etdiyini etiraf etmək məcburiyyətindədir. İstər boykot qərarı olsun, istərsə də, başqa bir qərarın seçkilərə mane olacağı, yaxud təsir belə edə bilməyəcəyinin fərqindədir. Çox güman ki, seçkidən acınacaqlı məğlubiyyətlə çıxmaq qorxusundan da iştirak etməkdən imtina etməyi üstün hesab edir.

*İnam HACIYEV*

# Türkiyə və İranda rominqdə olan "Nar" istifadəçilərinə "Full" paketlərindən internet bonusu

***13 fevral 2018-ci il tarixindən etibarən, xaricə səyahət edən "Nar" istifadəçiləri "Full" paketlərinin üstünlüklərindən daha çox faydalana biləcəklər. Belə ki, Türkiyə və ya İranda rominqdə olan "Nar" istifadəçiləri 2 GB-dək internet bonusu qazanacaqlar. Mobil rabitə bazarında unikal bir təklif olan "Full" paketlərinin əsas özəlliyi istifadə edilməyən bonusların növbəti aya keçməsidir. Beləliklə, rominqdə olan "Full" istifadəçiləri də toplanan bonuslardan növbəti ayda istifadə etmək fürsəti qazanırlar. Bonuslardan "Full 29", "Full 39" və ya "Full 49" paketlərindən birinə qoşulmuş abunəçilər faydalana bilərlər.***




Xatırladaq ki, "Nar"-ın "Full" paketlərindən birinə qoşulan abunəçilər bu sərfəli təklif sayəsində bol ünsiyyətdən həzz almanın sevincini yaşayırlar. Ölkədaxili danışıq dəqiqələri və bol internetin daxil olduğu paketlərin əsas özəlliyi qazanılan bonusların növbəti aya keçməsidir. Abunəçilərin arzu və istəklərini hər zaman nəzərə alan "Nar" istifadə edilməyən bonusların bir sonrakı aya keçməsini məhz "Full" paketi ilə təklif etməklə, eyni fürsətdən rominqdə olan abunəçilərin də yararlanmasını təmin etdi.

"Full" paketləri haqqında ətraflı məlumatı mobil operatorun internet səhifəsindən öyrənmək olar: https://www.nar.az/full.

"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.



## Müxalifətin köhnə havası - "Uzundərə"

**AFƏT**

***Hər sahədə güclü rəqabətin olması vacibdi. Çünki rəqabət olan yerdə sağlam iş mühiti də qurulur. Təbii ki, iş olan yerdə səhvlər və problemlər də ola bilər. Amma... amması ondadır ki, Azərbaycanda fəaliyyət göstərən adı olub, özü olmayan müxalifət uzun illərdir bar-bar bağırır ki, hakimiyyətə gəlsələr, bunlardan yaxşı işləyən olmayacaq. Guya bunlar fərqli siyasət aparacaqlar, ermənilərə verdikləri Qarabağı geri alacaqlar, daxili və xarici siyasəti bir ayrı formada quracaqlar. Dağılasan, a dünya. Hərgah bu onilliklər ərzində hər hansı bir mərifətli işlərini görmüş olsaydıq, deyərdik ki, bəli, bizdə də sağlam müxalifət var və sağlam rəqabət aparmaq gücündədirlər. Lakin bizdə belə bir müxalifət olmayıb və olmayacaq da.***

Orta məktəbin son illəriydi. Hadisələr hələ yeni-yeni başlamışdı. İnsanlar meydana yığılıb, mitinqlər edirdilər. Yadımdadır ki, bu adı olub, özü olmayan indiki müxalifət o zamanlar necə meydanlarda qışqır-bağır salırdılarsa, elə indi də həmin təfəkkürdə qalıblar. Yəni hələ də, meydan təfəkkürü və düşüncəsi, qanlarından və canlarından çıxmayıb. Seçkidən-seçkiyə üzə çıxıb, sonra yoxa çıxanlar niyə heç özlərinə baxmırlar ki, artıq 30 ilə yaxındı ki, sədrlik kreslosundan bərk-bərk yapışıb, onu başqasına vermək fikrində deyillər? Onların ancaq bir fikri var, o da hakimiyyətə gəlmək. Əlacları olsa, bir-birilərinə fiziki güc tətbiq etməklə vurub sıradan çıxararlar. Təki ixtiyari bir finişə çatmış olsunlar. Amma əllərindən heç nə gəlmədiyini görüb, xalqın dəstəyindən məhrum olandan sonra üz tutdular xaricə. Başladılar xarici qüvvələrə danışığa getməyə və xaricdən qrantlar almağa. Qrantları almaqdan ötrü dondan-dona, sifətdən-sifətə girdilər. Bu pulları "əritmək üçün" aradabir ətraflarına yığdıqları tanış-bilişləri ilə mini-aksiyalar keçirməyə başladılar ki, xaricin gözündən pərdə assınlar. Təsəvvür edin ki, müxalifət öz içində bir-biri ilə yola gedə bilmir. Elə bir seçki yada gəlmir ki, bu partiya funksionerləri bir yerə toplaşıb, aralarından "vahid namizəd" seçə bilsinlər. Nə vaxt da hər hansı biri seçkiyə gediblərsə, səs toplaya bilməyib, biabır olublar. Uğursuzluğa düçar olmalarının səbəbi də, xalqa, dövlətə zidd siyasət aparmaları və qəpik-quruş əldə etmək xatirinə xarici maraqlı dairələrlə iş birliyinə getmələridir. Təsadüfən hakimiyyətdə olduqları dövrdə tariximizin qara səhifəsi kimi yaddaşlara həkk olub. Hakimiyyətdə olduqları bir il ərzində büdcəni hansı vəziyyətə qoyduqları, yeraltı-yerüstü sərvətlərimizi necə talan etdikləri, ölkədə xaos və anarxiya yaratdıqları hər kəsə məlumdur, "xalqın gözü tərəzidir" deyiblər. İnsanlar ağı-qaradan seçməyi bacarır. Bu baxımdan, bacardığınız işin arxasınca gedin, bəylər.

# “Axecepeçilər”in Lələtəpə “məntiqi”

## *Yaxud Nurəddin Məmmədlinin ucuz kərimovçuluğu*

***Əli Kərimlinin sədri olduğu AXCP və bu radikal müxalifət partiyasının sözdə “rəsmiləri” zaman-zaman Azərbaycan dövlətinin və hakimiyyətinin bütün sahələrdə əldə etdiyi davamlı uğurları siyasi korluqları vasitəsi ilə ört-basdır etməyə cəhd göstərirlər. Söz yox ki, ümumilikdə, Ə.Kərimlinin mövcud olduğu yerdə onun ətrafı da məhz özükimilərdən ibarətdir və bu, bir reallıqdır. Lakin bir çox hallarda, bu reallıq o qədər cılız və ucuz görünür ki, bunun da səbəblərindən biri onların daxillərində formalaşmış xəyanət sindromlarıdır. Vətənə, dövlətə və xalqa xəyanət etmək Ə.Kərimlinin və ətrafının boyuna biçilib sanki.***


Nureddin Memmedli
2 hrs
Lələtəpədən sonra AXCP-nin Şəki şöbəsinin qərərgahı zəbt olundu.
152
13 Comments 4 Shares
Like Comment Share

### Əli Kərimli yaxın ətrafını qurban verir, öz yaxasını isə kənara çəkir

O da əbəs deyil ki, Kərimlinin sədri olduğu AXCP adlı dırnaqarası siyasi qurum, hətta şeytanla belə əməkdaşlığa getməyə hazır olduğunu dəfələrlə sübuta yetirib. Xarici ölkələrdə fəaliyyət göstərən və əsasında erməni lobbisinin dayandığı təşkilatlardan gizli yollarla maliyyə dəstəyi alan Ə.Kərimli, hətta buna görə öz yaxın ətrafını da qurban verir və öz yaxasını, necə deyərlər, kənara çəkir. Misal üçün, Nardaran hadisələri zamanı Kərimlinin müavini Fuad Qəhrəmanlını qabağa verərək, radikal və satqın dindarların “lideri” Taleh Bağırzadəyə dəstək göstərməsini, sonradan isə həbs edilməsini, digər müavini Gözəl Bayramlını Gürcüstana göndərərək, oradakı erməni emissarlarından külli miqdarda pul aldıraraq, Azərbaycana qanunsuz şəkildə keçirmək istərkən həbs olunmasını, eləcə də, onlarla gəncin həyatlarını və gələcəklərini zəhərləyərək, radikallaşdıraraq yanlış yollara sövq etməsini, o cümlədən, yüzlərlə bənzər faktları göstərə bilərik. Bütün bunlar, bilavasitə axecepeçilərin ucuz “məntiqlərinin” aşkar göstəricisidir.

### Azərbaycan Ordusunun aprel zəfərinə iftiraları da Əli Kərimli və ətrafı atıb, sonradan isə həmin iftiralar erməni mediasında tirajlanıb

Bu arada biz növbəti dəfə AXCP “məntiqinin” şahidi olduq. Lakin bu mövzunu açıqlayana qədər bəzi xatırlatmalar da etmək istərdik. Belə ki, 2016-cı ilin aprelində Azərbaycanın şanlı Ordusu böyük miqyaslı hərbi əməliyyatlar keçirərək, işğalçı Ermənistanın və separatçıların təxribatlarına qarşı sarsıdıcı zərbələr endirərkən və ərazilərimizin bir hissəsi işğaldan azad edilərkən, radikal müxalifət bu uğurlarımıza qara yaxmağa cəhd göstərdi. Hətta Ə.Kərimli FB bloggeri qismində, “Milli Şura”nın reneqat “başbiləni” Gültəkin Hacıbəyli, heç bir məntiqi olmayan “mülahizələr” irəli sürərək, Ordumuza qarşı iftiralar səsləndirdilər. Hətta iş o yerə çatdı ki, düşmən ölkənin mediası onların ifadələrini öz xeyirlərinə tirajladılar.

### AXCP sədrinin müavini Nurəddin Məmmədli 2016-cı ildə Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsini “işğal” olaraq qiymətləndirib!

İndi isə qayıdaq əsas mövzuya və bu dəfə Ə.Kərimlinin, sözün əsl mənasında, ayağısürüşkən və maymaq müavini Nurəddin Məmmədlinin FB-dəki sərsəm statusuna diqqət yetirək. Məsələ ondadır ki, AXCP-nin rayon şöbələri tamamilə fəaliyyətsiz vəziyyətdədir və bunun da səbəbi insanların belə bir xəyanətkar siyasi quruma nifrətidir. Yəni biz bunu baş verən kütləvi istefalardan da görməkdəyik. Bu baxımdan, digər rayonlarda olduğu kimi, AXCP-nin Şəki şöbəsi də, demək olar ki, adamsız qalıb. Bunu gizlətməkdən ötrü isə, N.Məmmədli öz təbirincə, “siyasi mesaj” verdiyini sanaraq, cəbhənin Şəki rayon şöbəsinin “işğal” olunduğunu iddia edib və 2016-cı ildə azad olunmuş Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsini “işğal” olaraq qiymətləndirib. N.Məmmədlinin bu qədər zərərli və xain fikirləri isə belədir: “Lələtəpədən sonra AXCP-nin Şəki şöbəsinin qərargahı zəbt olundu” (???!!!-R.N.). Bu cılız “adam” belə öz dar düşüncəsi ilə, belə sanır ki, Lələtəpə yüksəkliyi işğaldan azad edilməyib, əksinə, “işğal” olunub. Bununla erməni dəyirmanına su tökən N.Məmmədli öz içindəki erməni sevdasını açığa çıxarmış olub.

### Sosial şəbəkə istifadəçiləri Nurəddin Məmmədlinin statusunu hiddətlə qarşıladılar

Onu da qeyd edək ki, AXCP-nin sədr müavininin sözügedən fikirləri sosial şəbəkə istifadəçiləri tərəfindən hiddətlə pislənilib və o, sərt şəkildə qınanılıb. Məsələn, qhtxeber-in baş redaktoru Sənan Nəcəfov yazır: “Bunların mahiyyəti, ağılı və düşüncəsi budur. Siyasi mesaj verir, guya bu heyvan...şünas. Anlamır ki, özü boyda səhv buraxıb. Bu heyvan...şünasa deyən lazım ki, Lələtəpə zəbt olunmayıb...”Lələtəpənin azad edilməsini hansısa rayon təşkilatının ofisinin bağlanması, ya boşaldılması ilə eyni tutan bir məxluqun siyasətdə nə işi var?”-sualı çox yumşaqdı məncə. Konkret ...məlidir”

Sosial şəbəkə istifadəçisi Könül Məmmədova isə fikirlərini bu cür qeyd edib: “Beyin yerinə boş balon gəzdirirlər sanki başlarında.

Adam nə qədər taxtabaş olmalıdır ki, etdiyi səhvi anlamasın”.

Anar Şahmurad: “Bu status-la AXCP-nin “başbilənləri” ermənipərəst dairələr tərəfindən maliyyələşdirildiklərini, erməniyə xidmət etdiklərini və ermənipərəst qüvvələrin əlinin altında əmr qulu olduqlarını etiraf ediblər. Özləri də qanmadan!”

Nailə İsmayılova: “Bunların ağlına dua yazılmalıdır. Müqayisəyə bax. Ona görə də, xalq bunlara inanmır. Bu status Lələtəpəni azad edən mərd oğullarımıza təhqirdir. Eyni zamanda, Aprel Döyüşlərində həlak olan Şəhidlərimizə saygısızlıqdır. Lənət olsun bunlara!”

Niyaməddin Orduxanlı: “Dovşanşünasdır. Düşük...”

Aynur Shakkerimova: “O vaxt bu statusa yazdım ki, “sizin bu məntiqlə Lələtəpə Ermənistan ərazisidir, bizə məxsus ərazi deyil ki, ordu oranı zəbt edib? “yazımı silib, məni də bloklamışdı. Amma bu yaxında profilini gördüm yenə, yəqin amnistiyaya düşmüşəm hansısa mitinq əvvəli”.

Beləliklə, bu kimi statuslar kifayət qədərdir və onların hər biri AXCP sədrinin müavini N.Məmmədlinin siyasi savadsızlığını, xəyanətkarlığını və s. mənfi cəhətlərini sərt şəkildə tənqid atəşinə tutublar. Ancaq təəssüf ki, bütün bunlardan sonra AXCP-nin ucuz məntiqi elə ucuz və cılız olaraq da, qalmaqda davam edir. Əgər belədirsə, demək ki, onların daxillərində dövlət və xalq marağı olmayıb, yoxdur və olmayacaq da. Xalqdan təcrid olunmuşların isə cəmiyyətdə yeri yoxdur!

**_Rövşən NURƏDDİNOĞLU_**

# “Yurddaş” partiyasının da seçimi Cənab İlham Əliyevdir

## *Mais Səfərli: “Biz siyasi arenada Cənab İlham Əliyevə alternativ ola biləcək namizəd görmürük”*

“Fevralın 12-də “Yurddaş” partiyasının Siyasi Şurasının iclası keçirilmişdir. İclasda Siyasi Şura üzvləri Yeni Azərbaycan Partiyasının VI Qurultayında 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi haqqında qərarı dəstəklənmişdir”. Bunu “Səs” qəzetinə açıqlamasında “Yurddaş” partiyasının sədri, parlamentin keçmiş üzvü Mais Səfərli bildirib. Onun sözlərinə görə, “Yurddaş” partiyası Cənab İlham Əliyevin qələbəsi uğrunda təbliğat-təşviqat işlərinin aparılması üçün seçki qərargahının yaradılması haqqında da qərar qəbul edib: “Yurddaş” partiyası hesab edir ki, bu gün Cənab İlham Əliyev Azərbaycanda prezidentliyə ən uğurlu namizəddir. Biz siyasi arenada Cənab İlham Əliyevə alternativ ola biləcək namizəd görmürük. Prezident İlham Əliyev buna özünün bu illər ərzindəki xeyirli, gərəkli fəaliyyəti ilə nail olub. 14 il ərzində Prezident İlham Əliyev Azərbaycan dövlətinin daha da inkişaf etməsi üçün hər bir addımı atıb. Uğurlu siyasətin nəticəsi olaraq, Azərbaycan təkcə iqtisadi sahədə deyil, sosial, hərbi, siyasi, diplomatik sahələrdə də çox böyük uğurlar qazanıb. Bu gün Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir ki, Azərbaycan dövləti dünyanın aparıcı dövlətləri sırasındadır. Azərbaycan dünyada qüdrətli dövlət kimi tanınır. Bu baxımdan, Cənab İlham Əliyev də yenidən Azərbaycanın dövlət başçısı seçilməsinə böyük mənəvi haqq qazanmışdır. Biz Cənab İlham Əliyevin namizədliyini dəstəkləyirik”.



M.Səfəli bildirdi ki, bu gün radikal müxalifət düşərgəsini təmsil edən qüvvələr hay-küy qaldırmaqla seçki əhval-ruhiyyəsinə kölgə salmağa çalışırlar: “Onların dərdi ancaq boş qalan ciblərini doldurmağa yönəlib. Çünki müxalifət təmsilçiləri çox yaxşı bilirlər ki, onlar bu seçkilərə qatılsa belə, heç nə əldə etməyəcəklər. Uzun illərdir ki, müxalifətçilər ölkədə keçirilən bütün seçkilərə qatılır, amma heç bir nəticə əldə edə bilmirlər. Bunun da səbəbi müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyinin olmaması ilə bağlıdır. Müxalifətin fəaliyyəti, ancaq ağa qara deməkdən ibarətdir. Yəni bu gün müxalifət partiya sədrləri normal siyasi fəaliyyətlə məşğul olmurlar. Bu gün radikal müxalifəti dəstəkləyən xarici qüvvələr onlardan bir alət kimi öz məqsədləri üçün istifadə edirlər. Tam qətiyyətlə, demək olar ki, hazırda müxalifət çox gücsüz, ictimai dəstəkdən məhrum olan, heç bir sosial bazası olmayan və adı olub, özü olmayan 5-10 nəfərdən ibarət bir qüvvədir”.

**GÜLYANƏ**

# Qanunsuz yolla əldə edilmiş meşə materialları aşkarlanıb



Qanunsuz yolla əldə edilmiş meşə materialının daşınması ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin “Qaynar xətt”inə daxil olan məlumat əsasında fevralın 12-də Cəlilabad və Masallı meşə mühafizəsi və bərpası müəssisələri, 1 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsi və Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən birgə operativ reyd keçirilib. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, reyd zamanı Masallı və Cəlilabad rayonları ərazisində Lənkəran rayon Narbağı kənd sakini Rahim Həsənova məxsus “Shacman” markalı 99-JG-435 dövlət qeydiyyat nişanlı avtomobilin yük yerində gizlətmək məqsədilə üzəri qumla örtülən, qanunsuz yolla əldə edilmiş meşə materialı aşkar edilib. Saxlanılan yük maşını Cəlilabad Rayon Polis Şöbəsinə gətirilib. Meşə materialının Lerik rayonundan gətirilməsi ehtimal olunur və hazırda tədqiqat aparılır. Nazirlikdə təəssüflə qeyd ediblər ki, mütəmadi olaraq aparılan qabaqlayıcı tədbirlərə baxmayaraq, gizli və oğurluq yollarla əldə edilmiş meşə materiallarının daşınması halları baş verir. Bu cür halların qarşısını almaq məqsədilə respublika ərazisində reydlər davam etdirilir.

# Ötən gün 114 cinayət faktı qeydə alınıb

Respublikanın daxili işlər orqanları ötən gün 114 cinayət faktı qeydə alıblar. Onların 20-si “isti izlər”lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, axtarışda olduqlarına görə 29 nəfər saxlanılaraq, aidiyyəti üzrə təhvil verilib. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 8 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 30 nəfər saxlanılıb.

# Azadlıq hüququ fərdi və ictimai meyarlar kontekstində

**_Əxlaq normalarının bir mühüm spesifikliyi bundadır ki, o, sosial tənzimetmənin özünəməxsus üsulu olmaqla, özündə iradə azadlığı fenomenini daha geniş əhatə edir. Bu, hüquqi normalarda, inzibati göstərişlərdə və təşkilat-texniki qaydalar sistemində, demək olar ki, yoxdur._**

Hüquq ilə əxlaqın vəhdətinin azadlığın inkişafına müsbət təsiri nəticəsində, onların hər üçünün qarşılıqlı əlaqələri daha da möhkəmlənir. Bu baxımdan, D.Lukovskaya yazır: "Hüquq ilə əxlaq fərdin azadlığının müəyyən ölçüsünü ifadə edir. Onların qarşılıqlı əlaqəsi özünü bunda göstərir ki, hüquq azadlığın ölçüsü olmaqla şəxsiyyətin mənəvi cəhətdən özünü məhdudlaşdırmasına ehtiyac hiss edir, əxlaqın isə, ümumi ictimai mənəviyyatı qorumaq naminə, bir sıra hüquqi məhdudlaşdırmalara ehtiyacı vardır". Qeyd edək ki, bu ədalətli və doğru müddəa bəzi hüquqşünaslar tərəfindən müəyyən şübhə ilə qarşılanır. Belə ki, onlar hüquq, əxlaq və azadlığın münasibətləri ilə sıx bağlı olan ictimai zərurət və xarici azadlıq ilə insanın daxili şəxsi azadlığının əlaqələrinin izahında yanlışlığa yol verərək, göstərirlər ki, əgər insan xarici obyektiv zərurət ilə barışırsa, onda onun daxili azadlığı olmur, çünki bu halda, onun davranış və hərəkətləri obyektiv xarici şərait ilə şərtlənir və deməli, insan zahirən azad olur.D.V.Çuxviçev yazır:" Belə davranış və hərəkətlər insanın daxili maraqları, inamı və mənəvi keyfiyyətləri ilə dərin əlaqəli olmadığından, həmin insanı, sözün əsl mənasında, azad hesab etmək olmaz, çünki bu halda, o, xarici qüvvələrin təsiri və məcburiyyət üzündən baş verir". Əslində, şüurlu varlıq olan insanın hər bir hərəkət və davarnışında obyektiv tərəfin təsiri, onun öz subyektiv keyfiyyətləri, daxili aləmi ilə qovuşmuş halda çıxış edir.

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev yazır: "Əxlaqın hüquqla qarşılıqlı tamamlanmasına əlverişli zəmin yaradan amilləri təhlil edərkən, fikrimizcə, aşağıdakı iki cəhətə də diqqət yetirilməlidir. Bunlardan birincisi odur ki, hüquq tərəfindən dövlətin və digər siyasi institutların funksiyalarının yerinə yetirilməsində sivil formalar geniş iştirak edir. Bu formalar öz mahiyyəti və məzmununa görə ümumi əxlaq normalarına çox yaxın olub, prinsip etibarilə onlardan qaynaqlanır. İkinci cəhət, hüququn formalaşması və inkişafında mədəniyyət amilinin rolunun artmasında ifadə olunur. Bu, o deməkdir ki, insanların mədəniyyət səviyyəsi, onların hüquqi şüuru və düşüncəsinin çox mühüm tərəfi kimi çıxış edir. Lakin mədəniyyətin rolu təkcə bununla məhdudlaşmır. Real həyatda, davranış və fəaliyyətdə hüququn normaları və tələblərinin praktiki yerinə yetirilməsində də fərdlərin mədəniyyət göstəriciləri müstəsna əhəmiyyət kəsb edir. Söhbət, hər şeydən əvvəl, hüquqi biliklərin əhali arasında yayılması səviyyəsi və hüquqi maarifləndirmə göstəricisi kimi çıxış edən hüquqi mədəniyyətdən gedir. Qeyd olunan məqam da, əxlaqla hüququn tamamlanması prosesində mühüm əhəmiyyətə malikdir, çünki hüquqi mədəniyyət rasional nəzəri hüquq prinsipləri ilə yanaşı, insanların gündəlik həyatında tətbiq olunan və möhkəmlənən ümumi birgəyaşayış qaydalarını da əhatə edir ki, onların bir çoxu əxlaqi təsəvvürlərdən ayrılmazdır."

Ümumilikdə götürdükdə, hər iki cəhət davranış və fəaliyyətdə kənar (xarici) tənzimləyici təsirin, insanın öz mənəvi daxili tələbatına çevrilməsini ifadə edir. Beləliklə də, konkret şəraitdə azad seçimə və davranışa müsbət təsir göstərir, onun hüdudlarını və variasiya imkanlarını genişləndirir. Bu məsələdən danışarkən, belə bir məqamı vurğulamaq lazım gəlir. Əxlaqla yaxınlıq və əxlaqla tamamlanma prinsipi, hüquqi şüurun fərdi və ictimai növlərində eyni səviyyədə getmir. Bu baxımdan, fərdi hüquqi şüur ictimai hüquqi şüuru xeyli dərəcədə qabaqlayır. Fikrimizcə, bu cəhət onunla izah edilməlidir ki, fərdin hüquqi şüuru onun gündəlik praktikası ilə, real həyatda əməl etdiyi davranış qaydaları, dünyaduyumu, özünüqiymətləndirmə və özünənəzarət ilə daha sıx bağlıdır. Bununla yanaşı, qeyd olunan münasibətdə, müxtəlif fərdlərin hüquqi şüurları arasında da onların yetkinlik, dünyagörüşü, bilik və məlumatlılıq və mədəni baxımından müxtəlif olması ilə şərtlənən fərqlilik özünü göstərir.

Cəmiyyət daxilində insanların normal həyat fəaliyyətini təmin etmək baxımından, hüquq ilə əxlaqın ümumi cəhətləri, təmas nöqtələri və onların əsasında baş verən qarşılıqlı surətdə bir-birini tamamlaması əsas yer tutur. Bu mənada, əxlaqın mənəvi keyfiyyətlərə arxalanan tərbiyəvi xarakteri, daxili tələbatdan irəli gələn tənzimləyici olması keyfiyyəti, bu və ya digər fərdin həyatı ilə məhdudlaşmır, ümumilikdə, cəmiyyət miqyasında götürdükdə, xüsusi önəm və əhəmiyyət kəsb edir. Buradan aydındır ki, mənəvi cəhətdən yetkin fərdə məxsus olan yüksək əxlaqi dəyərlərin, ictimai həyatın digər subyektləri (sosial qrup, kollektiv, etnik birlik və bütövlükdə, cəmiyyət) arasında geniş yayılması, ictimai həyatın normal tənzimlənməsi ilə bağlı problemlərin həllini asanlaşdıra bilər. Bununla əlaqədar, qeyd edilməlidir ki, ən mükəmməl hüquq sistemində belə, ictimai münasibətlərin bütün səpgilərini tam hərtərəfliliyi ilə əhatə etmək son dərəcə çətindir. Buna görə də, hüquqi normalarda müəyyən boşluq halları istisna olunmur. Belə vəziyyət ilə qarşılaşdıqda, insanların necə davranmasına, meydana çıxan çətinlikləri dəf edə bilib-bilməməsinə cəmiyyət biganə qala bilməz. Analoji problemlər ilə üzləşdikdə, insanlar öz dünyagörüşü, ideya inamı və mənəvi dəyərlərə malik olması səviyyəsindən çıxış edərək, elə qərarlar qəbul edirlər ki, bunlar öz ruhuna görə hüquq ilə müqayisədə əxlaqa daha yaxın olur. Qeyd olunan məqam da, sübut edir ki, hüququn əxlaqla tamamlanması vətəndaş cəmiyyəti quruculuğu prosesində insanların öz hüquqlarından və azadlıqlarından səmərəli bəhrələnməsi və sui-istifadə hallarına yol verilməməsi baxımından, böyük əhəmiyyətə malikdir. Bu, əhalinin geniş təbəqələrinin ictimai həyatın müxtəlif tərəflərində özünü göstərən imkanlardan mənəvi borcu başa düşməklə, vicdanlı surətdə istifadə etmələrində, bütövlükdə, ümumi birgəyaşayış qaydalarına mükəmməl yiyələnmələrində və onları həyata keçirmək əzmində öz ifadəsini tapır. Demokratik cəmiyyətin əsas qayəsi və modeli dəyişilməkdə olan ictimai şəraitə uyğun olaraq, hüquqi və əxlaqi normativ sistemlərin də müvafiq surətdə yeniləşməsi ilə sıx bağlıdır. Bu, insanların həyatında kənardan təsir ilə səciyyələnən tənzimləyici forma olan hüquq sistemini durmadan təkmilləşdirməyi nəzərdə tutur. Həmin prosesin çox mühüm istiqamətini, sivil cəmiyyətin insanların azad seçimi üçün yaratdığı mənəvi əxlaqi imkanların getdikcə artırılması təşkil edir.

Hüququn əxlaq və azadlıq ilə sıx vəhdəti bir tərəfdən, şəxsi azadlıqları təmin etməyə, digər tərəfdən isə, ümumi rifaha nail olmağa yönəlir. Buna görə də, hüquqi şüurun xeyirxahlıq və fəzilətə arxalanan səviyyəyə yüksəldilməsi, müstəsna əhəmiyyət kəsb edir. Belə ki, o, eyni zamanda qanunun, müəyyən əməlləri yerinə yetirmək borcunun motivinə çevrilməsi deməkdir. Bununla əlaqədar qeyd edilməlidir ki, vətəndaşların yüksək əxlaqi və hüquqi şüurunun əldə edilməsi və dövlət hakimiyyətinin çox mühüm fəaliyyət istiqamətini təşkil edir. Dövlətin xalqın səlahiyyətli hakimiyyəti rolunu oynadığı müasir demokratik cəmiyyətdə, onun bu qəbildən olan tərbiyəvi təsiri daha böyük önəm kəsb edir. Onun səmərəli təşkili, hüququn mənəvi əsaslarının möhkəmlənməsinə, onun hər bir insanın həyat üsuluna çevrilməsinə doğru aparır. Bu baxımdan, hüquqi dövlətin formalaşması prosesi müstəsna əhəmiyyətə malikdir. Hüquqi dövlətdə, digər ümumbəşəri dəyərlər kimi, şəxsiyyət azadlığı geniş inkişaf edir. Bu, özünün konkret ifadəsini dövlət idarəçiliyinin demokratik formalarının tətbiqi miqyasının genişləndirilməsində, dövlət ilə münasibətlərdə




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

şəxsiyyətin hüquq və azadlıqlarına prioritet yer verilməsində tapır. Hüquqi dövlət həm də hüquqda ümumbəşəri əsasların çoxalması, insana əsas məqsəd kimi yanaşılması ilə səciyyələnir. Deyilənlərdən aydın olur ki, hüquqi dövlət də demokratiya, humanizm və azadlıq kimi fundamental ümumbəşəri dəyərdir (254, s.114).

Tanınmış rus hüquqşünası V.Çetvernin hüquqi dövlətin aşağıdakı üç başlıca əhəmiyyətini seçib ayırır ki, onların hər birində azadlığın inkişafı ilə bağlı məqam əsas yer tutur: 1.Hüquqi dövlətdə fərdin minimum (ayrılmaz, özgələşməyən) azadlığının ölçüləri konstitusiyada təsbit edilməlidir. Beləliklə də, müəyyən olunmalıdır ki, heç bir digər şəxs və ya hər hansı dövlət orqanı bu minimum azadlıqları poza bilməz. 2. Burada fərdlərin və onların birliklərinin mülkiyyət azadlığına və müstəqilliyinə formal-yuridik təminat verilməlidir. 3. Hüquqi dövlət institusional-hüquqi azadlığın, müstəqilliyin və mülkiyyətin təminatını verən qanunvericilik sistemi yaratmalıdır .

Deyilənlərdən aydın olur ki, hüquqi dövlət və vətəndaş cəmiyyəti bir-birilə sıx qarşılıqlı təsirdə və qarşılıqlı asılılıqda çıxış edərək, şəxsiyyətin hüquq və azadlıqlarının daha da inkişafını stimullaşdırır. V.P.Puqaçev yazır: "Müasir politoloji ədəbiyyatda, haqlı olaraq hüquqi dövləti səciyyələndirən əsas cəhətlər sırasında şəxsiyyətin fərdi azadlığına və əsas hüquqlarına təminat verilməsi xüsusi qeyd olunur."

Hazırda ölkəmizdə hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşması istiqamətində əldə edilmiş uğurlar, insanların azadlıqlarının daha da genişlənməsi ilə müşayiət olunur. Bu, tamamilə təbii olub, vətəndaş cəmiyyətinin daxili mahiyyətindən irəli gəlir. K.S.Hacıyev yazır: "Çünki o, elə bir sosial məkanı ifadə edir ki, burada insanlar bir-birindən və eləcə də, dövlətdən asılı olmayan müstəqil fərdlər kimi qarşılıqlı təsirdə çıxış edirlər. Bu cəmiyyətdə həyat fəaliyyətinin sosial, sosiomədəni və mənəvi sferaları, fərdlərin və kollektivlərin maraqlarını həyata keçirməyə və özlərini reallaşdırmağa xidmət etmək məqsədi güdür".

Buradan, bir daha aydın olur ki, vətəndaş cəmiyyəti ictimai quruluşun, elə bir sosial təşkili formasıdır ki, burada şəxsiyyət yüksək səviyyəli, azadlığı hamı tərəfindən qəbul olunmuş ümumi dəyər statusu kəsb edir. Öz-özünü tənzimləmə funksiyasını dolğun surətdə reallaşdırmağa qadir olan vətəndaş cəmiyyəti, müxtəlif sosial institutlarda və birliklərdə təmsil olunan insanların öz yaradıcı imkanlarını, hüquq və azadlıqlarını gerçəkləşdirməsi üçün əlverişli şərait yaradır, onların hüquq və azadlıqlarına real təminat verir.

**_Vahid ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**

## Yuxusuzluğun orqanizmə ziyanı varmı?

Yuxu orqanizmin ən vacib fizioloji vəziyyəti olsa da, onun mənşəyi və səbəbləri hələ indiyədək tam öyrənilməyib. Yuxuya gedən canlının şüuru bir neçə saatlığa sönmüş olur. Bununla belə alimlər yuxunun bəzi qanunauyğunluqlarını da aşkar ediblər. Məlum olub ki, 6-8 saat yuxu yatan yetkin insanlara uzun ömür sürmək nəsib olur. Yuxu azlığı isə diabet və ürək-damar xəstəlikləri kimi bir sıra problemlərə səbəb olur. Xroniki yuxusuzluq da həmin xəstəliklərlə yanaşı piylənmə, depressiya və beyin zədələnmələri ilə əlaqələndirilir.



**Bəs yatmamaq necə, mümkündürmü?**

AZƏRTAC tibbi saytlara istinadla xəbər verir ki, alimlər bu sahədə maraqlı bir tədqiqat aparıblar. İlk yuxusuz gecədən sonra insan beynində mezolomit sistem aktivləşərək qana defomin atır. Həmin təsirin nəticəsi olaraq insan daha enerjili, pozitiv və aktiv olur. Əvvəlcə beyində qərar verməyə və nəticələri qiymətləndirməyə nəzarət edən strukturlar reaktivləşir, özünüidarə zəifləyir, yorğunluğun meydana çıxması ilə reaksiyaların sürəti yavaşıyır və ətraf aləmi dərketmə funksiyaları azalır.

İkinci yuxusuz gecədən sonra orqanizmdə qlükoza mübadiləsi və immun sistemi fəaliyyəti pozulmağa başlayır. Üçüncü yuxusuz gecədən sonra isə ilk hallüsinasiyalar meydana gələ bilər.

Elmi təcrübələr nəticəsində ən uzunmüddətli yuxu məhdudiyyəti 264 saat və ya 11 gün davam edib. Məlum səbəblərdən təcrübə yarıda qoyulub. Həmin proseslər zamanı alimlər bir sıra maraqlı nəticələrə gəliblər.

Yuxusuz keçən 11 gecədən sonra dağınıqlıq və əsəbilik müşahidə olunsa və ətraf aləmi dərketmə prosesi çətinləşsə də, yuxusuzluğun orqanizmə heç bir mənfi təsiri olmayıb. Tibbi mənada bütün orqanlar normal işləməkdə davam edib: nə beynin fəaliyyətinə zərər dəyib, nə də psixi pozulmalar meydana gəlib. Lakin təcrübə elə həmin mərhələdə də dayandırılıb. Yuxusuzluğun davam etdiriləcəyi təqdirdə orqanizmin funksiyalarının pozulmayacağına heç bir zəmanət verilə bilməz.

## Alimlərdən həyəcan siqnalı: Atmosferdən üstümüzə virus "yağır"

Alimlər virusların əksəriyyətinin atmosferdə toplandıqdan sonra Yer üzünə düşdüyünü açıqlayıblar. "International Society for Microbial Ecology" dərgisində yer alan xəbərə görə, Kanada, İspaniya və ABŞ-dan olan elm adamlarının apardığı araşdırma nəticəsində virusların toz buludları və okean suyunun buxarının vasitəsi ilə atmosferə daşındığı, orada bir müddət qaldıqdan sonra yer üzünə yağdığı məlum olub.



Kanadanın Britiş Kolumbiya Universitetinin mütəxəssisi Kartis Satl bildirib ki, Yer kürəsinin sərhəd qatında hər kvadratmetrdə hər gün ən azı 800 milyon virus toplanır. Bu isə Kanadada adambaşına 25 növdə virus düşdüyü anlamına gəlir. Təxminən 20 il əvvəl genetik olaraq oxşar virusların dünyanın bir çox fərqli bölgələrində aşkarlandığını ifadə edən mütəxəssis, bunun virusların atmosferdə səyahət etdiyini göstərdiyini deyib. İspaniyanın Qranada Universitetinin ətraf mühit üzrə alimi İsabel Rexe virusların atmosferdə yayılandan sonra yağış və toz şəklində yerə düşdüyünü söyləyib.

## "Qalatasaray" Superliqada lider oldu



Fevralın 12-də futbol üzrə Türkiyə Super Liqasının XXI turu çərçivəsində çempionluq uğrunda növbəti maraqlı oyun keçirilib. AZƏRTAC xəbər verir ki, turnir cədvəlinin ikinci sırasında yer alan "Qalatasaray" doğma meydanda "Antalyaspor"u qəbul edib. Rəqibini 3:0 hesabı ilə məğlub edən "Qalatasaray" çempionatın lideri "Başakşehir"i bir xal qabaqlayaraq 44 xalla turnir cədvəlinin birinci pilləsinə yüksəlib. Fatih Terimin baş məşqçisi olduğu komandanın heyətində oyunun 14-cü və 20-ci dəqiqələrində Bafetimbi Qomis dubla imza atıb. 38-ci dəqiqədə Sofiane Fequli hesab arasındakı fərqi üçə çatdırıb - 3:0.

Hazırda hesabında 44 xal olan "Qalatasaray" turnir cədvəlinə başçılıq edir. "Başakşehir" 43 xalla ikinci, "Fənərbaxça" 41 xalla üçüncü yeri tutur. "Beşiktaş" 40 xalla dördüncü, "Kayserispor" isə 35 xalla beşinci pillədədir.



## Transferlərə ən çox pul xərcləyən klubların adları açıqlanıb

Beynəlxalq İdman Araşdırmaları Mərkəzi (CİES) Avropanın "böyük beşlik" ölkələrinin (İspaniya, İngiltərə, İtaliya, Almaniya, Fransa) yüksək liqalarında mövcud heyətinə ən çox yatırım edən klubların siyahısını açıqlayıb. Apasport.az-ın qurumun rəsmi saytına istinadən məlumatına görə, bu baxımdan liderlik "Mançester Siti"yə məxsusdu. "Şəhərlilər" ixtiyarındakı oyunçuların transferlərinə ümumilikdə 878 milyon avro ödəniş edib. "Mançester Siti" bununla futbol tarixinin ən bahalı klubuna çevrilib. Premyer Liqaya liderlik edən komanda Pep Qvardiolanın gəlişindən sonra transferlərə 500 milyondan avrodan çox xərc çəkib.

98 klubun yer aldığı siyahıda ikinci yeri 805 milyonla PSJ tutur. İlk "üçlüy"ü isə Mançester şəhərinin digər təmsilçisi "Mançester Yunayted" (747 milyon) qapayır. 98 klubdan 42-si indiki oyunçularının transferlərinə 100 milyon avrodan çox pul xərcləyib. Heyətini ən ucuz oyunçularla quran klub "Trua"dı. Fransızlar hazırkı kollektiv üçün cəmi 2 milyon avro ödəyiblər. Transferlərə ən çox pul sayan klublar Premyer Liqa təmsilçiləridi. İngilislərin 20 komandası orta hesabla 291 milyon avroluq oyunçular alıb. Növbəti yerləri müvafiq olaraq La Liqa (131 milyon), A seriyası (124 milyon), Bundesliqa (113 milyon) və Liqa 1 (97 milyon) tuturlar.

## "Neftçi İdman Klubu"nun atıcıları beş medal qazanıblar



Gənclər arasında güllə atıcılığı üzrə Bakı birinciliyi keçirilib. AZƏRTAC xəbər verir ki, Bakı Atıcılıq Mərkəzində təşkil olunan yarışda "Neftçi İdman Klubu"nun yetirmələri də bacarıqlarını nümayiş etdiriblər. Pnevmatik tapançadan atəşaçma yarışlarında (PTÇ-3) klubun yetirməsi İ mran Qasımov 563 xal toplayaraq birinci olub. Vladislav Kalmıkov ikinci, Tamerlan Əliyev isə üçüncü yeri tutublar. Xanım idmançıların mübarizəsində (PTÇ-2) Zeynəb Abbasova 523 xalla gümüş medala layiq görülüb. Fatimə Rzayeva (502 xal) isə paytaxt birinciliyini bürünc medalla başa vurub.



## Edinson Kavani: "Real"la tarixi oyun olacaq"

"Vacib transferlər etmişik. Bu transferlərin bizə çox xeyri olub. Meydanda özüməinamımız artıb. Bu da bizi bütün kubokları qazanmaq üçün motivasiya edir. "Real"la oynayacağımız üçün həyacanlanıraq. Tarixi bir matç olacaq. Çempionlar Liqasının kubokunu qaldırmaq istəyirəm. Bunun üçün qollar vurmağa çalışacam". Qol.az-ın məlumatına görə, bu sözləri PSJ-nin hücumçusu Edinson Kavani Çempionlar Liqasının 1/8 finalında "Real"la görüşlər öncəsi "Marca"ya açıqlamasında deyib. O, ötən mövsüm "Barselona"ya uduzduqları oyunu unutduqlarını bildirib: "Düzdür, ötən mövsüm "Barselona"ya çox pis formada uduzduq. Amma bundan dərs çıxarmışıq. Daha çox təcrübə qazanaraq yenidən Çempionlar Liqasındayıq. Düzdür, həmin matçda hakim Dəniz Aytəkinin çoxlu səhvi oldu. Amma mən kimisə günahlandırmağı sevən biri deyiləm. Oyunların 98 faizində səhvlərə və ya rəqib güclü olduğuna görə uduzursan. Digər şeylər önəmli deyil".

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**